RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 41 (9208) 23 FEVRAL 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Otuz il ərzində əməkdaşlığımız dinamik inkişaf etmişdir

### İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseynə

Əlahəzrət,

Azərbaycan Respublikası ilə İordaniya Haşimilər Krallığı arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar təbrik məktubunuza görə Sizə təşəkkür edirəm. Mən də öz növbəmdə ikitərəfli əlaqələrimizdə bu əlamətdar tarix münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir və xoş arzularımı yetirirəm.

Ölkələrimizi və xalqlarımızı birləşdirən ənənəvi dostluq və əməkdaşlıq münasibətləri bizim üçün əhəmiyyətlidir. Sevindirici haldır ki, ötən otuzillik dövr ərzində ikitərəfli əlaqələrimiz daha da möhkəmlənmiş, qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə əməkdaşlığımız dinamik və davamlı şəkildə inkişaf etmişdir.

Bu gün müxtəlif sahələrdə əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi üçün yaxşı imkanlar vardır. İnanıram ki, bu imkanlardan səmərəli istifadə edərək birgə səylərimizlə əlaqələrimizin daha da inkişafına, xalqlarımızın rifahına töhfələr verəcəyik.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İordaniya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2023-cü il*

## Qardaş Azərbaycan Respublikasının Prezidenti zati-aliləri, qardaşım cənab İlham Əliyevə

Əziz Qardaşım!

Zati-alinizə salamlarımı və ən xoş arzularımı ifadə edir, Sizə möhkəm cansağlığı diləyir, qardaş Azərbaycan xalqının firavanlığı, ölkənin tərəqqisi və inkişafı yönündə əvəzsiz səylərinizdən sevinc hissi duyuram.

İordaniya Haşimilər Krallığı və Azərbaycan Respublikası arasında diplomatik əlaqələrin yaranmasının 30 illik yubileyi münasibətilə zatialinizə qardaş dövlətlərimiz arasında münasibətlərin yüksək səviyyəsindən qürur duyduğumu və xalqlarımızın mənafelərinə xidmət etmək üçün müxtəlif sahələrdə əməkdaşlığımızı gücləndirmək və genişləndirmək niyyətində olduğumu bildirirəm.

Həmçinin Yaxın Şərqdə və dünyada sülhə nail olmaq, təhlükəsizliyi və sabitliyi möhkəmləndirmək üçün səylərimizi gücləndirmək və İslam ümmətinin mənafeyinə xidmət edəcək şəkildə ümumi maraq doğuran məsələlər üzrə əlaqələndirməni və qarşılıqlı müzakirələri davam etdirmək niyyətində olduğumu bir daha vurğulayıram.

Zati-alinizə və qardaş Azərbaycan xalqına cansağlığı, əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***Qardaşınız ll Abdullah ibn Al HÜSEYN,***
***İordaniya Haşimilər Krallığının Kralı***

## Qarabağ probleminin həll olunduğu məkan - QARABAĞ




Azərbaycanın işğalla heç zaman barışmayacağını daim ucadan söyləyən Prezident İlham Əliyev isə Qarabağ problemini "dəmir yumruq"la həll etdi!

"Tövsiyə"lərin əksinə olaraq hərbi yolla həll etdi!

44 gün ərzində Vətən müharibəsi aparmaqla həll etdi!

Düşmən ordusunu darmadağın edərək, Ermənistanı diz çökdürərək həll etdi!

Həm hərb meydanında, həm də diplomatiya və informasiya müharibəsində qazandığı möhtəşəm qələbələri ilə həll etdi!

Düşmənin belini qıraraq, başını əzərək kapitulyasiya aktına imza atdıraraq həll etdi!

Qalib sərkərdə və məğrur dövlət başçısı cənab İlham Əliyev bu gün də Azərbaycanın şərtlərini ucadan və açıq şəkildə bəyan edir:

Azərbaycan qalib gəlsə də, bu gün sülh tərəfdarıdır və qalan məsələləri sülh yolu ilə həll etmək niyyətindədir!

Azərbaycan sülh sazişinin 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın bütün maddələrinin icrası yolu ilə bağlanmasında israrlıdır!

Azərbaycanda daha "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur!

Status məsələsi birdəfəlik cəhənnəmə göndərilib, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinin hüquqları ölkədəki digər milli azlıqların hüquqları kimi qorunacaq, onlar mövcud imkanlardan hamı kimi istifadə edəcəklər;

Azərbaycan özünün daxili işi olan Qarabağ məsələsini daha heç bir dövlətlə, beynəlxalq qurumla müzakirə etməyəcək, heç kəsə onun daxili işlərinə qarışmasına yol verməyəcək;

Azərbaycan Qarabağdakı heç bir qondarma qurumu və onun qeyri-legitim başçısını tanımır və qəbul etmir.

Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransında Azərbaycanın qəti mövqeyini bir daha ortaya qoydu:

"Biz istəyirik ki, Qarabağ məsələsi beynəlxalq gündəlikdən çıxsın. Biz imkan verə bilmərik ki, Qarabağ məsələsi hər hansı bir formada Azərbaycanla Ermənistan arasında imzalanacaq sazişə daxil edilsin. Bunu mən bu gün cənab Blinkenin iştirakı ilə keçirilmiş görüşdə də bildirmişəm. Biz istəyirik ki, sərhədlərimiz tarixi xəritələr əsasında delimitasiya olunsun. Bunun da tarixi məntiqi var. Biz istəyirik ki, Ermənistan bizə qarşı ərazi iddialarından əl çəksin və normallaşma olsun".

→ 3

## Sülh, dostluq, mehribanlıq

### Mehriban xanım Əliyevanın bəşəri dəyərlərə xidmət edən xoşməramlı missiyası



→ 4

## Tacikistan Respublikasının Prezidenti zati-aliləri cənab Emoməli Rəhmona

Hörmətli Emoməli Şərifoviç!

Dağlıq Bədəxşan Muxtar Vilayətində baş vermiş qar uçqunu nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Tacikistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2023-cü il*

## Münhendə də etiraf edildi

### Azərbaycanda uzunmüddətli inkişafı hədəfləyən layihələr icra olunur

Prezident İlham Əliyev Münhendə həmçinin İtaliyanın "Leonardo" şirkətinin baş icraçı direktoru Alessandro Profumo ilə görüşüb. İtaliya Avropa İttifaqı məkanında ölkəmizin ən yaxın tərəfdaşıdır. Son aylar ərzində İtaliyanın üç nazirinin Azərbaycana səfəri iki ölkə arasında əlaqələrin inkişafının real göstəricisidir. İtaliyanın "Leonardo" şirkəti ilə əməkdaşlığın da xüsusi önəmi var.

Prezidentimiz görüşdə müdafiə sənayesi sahəsində mövcud olan əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini vurğulayıb. Enerji sahəsində də əməkdaşlığın uğurla inkişaf etdiyini diqqətə çatdırıb. "Ansaldo Energia" şirkəti ölkəmizdə bu günlərdə təməli qoyulan 1280 MVt gücündə istilik-elektrik stansiyasının inşasında iştirak edir. İtaliya şirkətləri işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinə də töhfə verirlər.

"Leonardo"nun baş icraçı direktoru Azərbaycanla müxtəlif sahələrdə artıq əməkdaşlıq münasibətlərinin mövcudluğunu və müdafiə sənayesi sahəsində əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduqlarını deyib, təmasları bundan sonra da davam etdirəcəklərini bildirib.

Münhendə Prezident İlham Əliyevin İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə də görüşü olub. Bərzani Azərbaycanın əldə etdiyi nailiyyətlər münasibətilə təbriklərini çatdırıb, dövlətimizin başçısının uzaqgörən siyasəti nəticəsində ölkəmizin uğurla inkişaf etdiyini vurğulayıb.

→ 3

## Məramı bəlli olmayan missiya

Xəbər verildiyi kimi, Avropa İttifaqının Ermənistan-Azərbaycan sərhədinin Ermənistan tərəfində mülki missiyası fevralın 20-dən fəaliyyətə başlayıb. İki il müddətinə göndərilən missiyanın tərkibinə 100 nəfər, onlardan da 50-yə yaxını silahsız olan müşahidəçi daxildir.

Ötən ilin oktyabrında Azərbaycan, Ermənistan, Fransa liderləri və Aİ Şurasının prezidenti arasında keçirilmiş Praqa görüşündə Aİ-nin mülki monitorinq missiyasının Ermənistan-Azərbaycan sərhədinə göndərilməsi ilə bağlı razılıq əldə olunmuşdu. Bu razılığa əsasən, missiya iki ay müddətinə 40 nəfərdən ibarət heyətlə fəaliyyət göstərməli idi. Azərbaycan bu fəaliyyətə sülh prosesinin sürətlənəcəyinə, normallaşma prosesinə kömək göstərəcəyinə inanaraq razılıq vermişdi. Missiyanın müddəti dekabrın 19-da başa çatsa da, Aİ növbəti mərhələdə bölgədə sülhün və təhlükəsizliyin bərpasının, etimadın yaradılmasının təmin edilməsi, həmçinin iki ölkə arasında beynəlxalq sərhədlərin delimitasiyası proseslərinin asanlaşdırılması üçün əvvəlki missiyanın effektiv olduğunu bəhanə edərək sərhədə daha uzunmüddətli və böyük tərkibdə heyətin göndərilməsi qərarını verdi. Amma bu dəfə Azərbaycanın heç bir razılığı olmadan, həm də sərhədlərin delimitasiya və demarkasiyası müəyyənləşmədiyi halda. Hər vəchlə sülh prosesini ləngitməyə çalışan Ermənistan üçün bu, əsl fürsətə çevrilib. Belə olan halda Aİ-nin sülhü dəstəkləməsi, prosesin sürətlənməsi üçün göstərdiyi səylər şübhə doğurur.

→ 5

## Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Fevralın 21-i saat 20:45-dən fevralın 22-si saat 01:20-dək Azərbaycan Ordusunun mövqeləri 15 dəfə atəşə tutulub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Çinarlı və Vedi rayonunun Birəli yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Tovuz rayonunun Ağdam yaşayış məntəqəsi və Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətlərində yerləşən mövqelərini snayper tüfəngindən və müxtəlif çaplı digər atıcı silahlardan fasilələrlə atəşə tutublar.

Bundan başqa, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Təzəkənd yaşayış məntəqəsi, Şuşa şəhəri və Xocavənd rayonu istiqamətlərində yerləşən mövqeləri də atəşə tutulub. Ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.



## Vardanyan Qarabağda son günlərini yaşayır

Son günlər Qarabağda ermənilər arasında maraqlı proseslər baş verir. Hadisələrin təhlili göstərir ki, separatçıların başçısı Araik Arutyunyanla Ruben Vardanyan arasında qarşıdurma birincinin üstünlüyü ilə başa çatmaq üzrədir. Belə ki, Ermənistanın hakim "Mülki Müqavilə" Partiyasının parlament fraksiyasının sədr müavini, həmçinin müdafiə nazirinin sabiq müavini olmuş Qaqik Melkonyan Qarabağ separatçılarının qondarma "dövlət naziri" Ruben Vardanyanın postunu tərk edəcəyini bildirmişdir.

→ 7

## Rusiya Prezidentinin çıxışı Qərbdə rezonans doğurub

Srağagün Varşavada səfərdə olan ABŞ Prezidenti Co Bayden isə bir daha əmin edib ki, Qərb Rusiyaya hücum etməyi və ya ələ keçirməyi planlaşdırmır. O qeyd edib ki, Putin Ukraynaya genişmiqyaslı hücum əmri verəndə dünya ictimaiyyətinin geri çəkiləcəyini düşünüb və yanılıb: "Ukraynalılar çox cəsarətlidirlər, Amerika, Avropa, Atlantik okeandan Sakit okeana qədər xalqların koalisiyası - biz çox birləşmişik. Demokratiya çox güclüdür".

→ 8

# "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında hökumət təcrübələrinin mübadiləsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il noyabrın 28-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında hökumət təcrübələrinin mübadiləsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Birləşmiş Ərəb Əmirlikləri Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2023-cü il*

# "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" 2009-cu il 24 iyun tarixli 116 nömrəli, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2014-cü il 20 fevral tarixli 111 nömrəli, "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2015-ci il 4 may tarixli 516 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və "Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2016-cı il 28 aprel tarixli 888 nömrəli və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 26 iyun tarixli 1382 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" 2009-cu il 24 iyun tarixli 116 nömrəli, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2014-cü il 20 fevral tarixli 111 nömrəli, "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2015-ci il 4 may tarixli 516 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və "Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2016-cı il 28 aprel tarixli 888 nömrəli və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 26 iyun tarixli 1382 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 597, № 7, maddə 742; 2022, № 3, maddə 208) 1-ci hissəsində "4394" rəqəmləri "4494" rəqəmləri ilə, "429" rəqəmləri "499" rəqəmləri ilə və "2460" rəqəmləri "2490" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 fevral 2023-cü il*

# Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası olub



Fevralın 22-də Prezident İlham Əliyevin 17 mart 2017-ci il tarixli Sərəncamı ilə yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası keçirilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iclasda dövlət başçısının 9 oktyabr 2017-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı" çərçivəsində 2022-ci il ərzində görülmüş işlər, əldə edilmiş nəticələr və qarşıda duran vəzifələr müzakirə edilib.

Baş nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədov qeyri-formal məşğulluğun qarşısının alınması sahəsində ötən il görülmüş işlər və əldə edilmiş nailiyyətlər barədə ətraflı məlumat verib. Komissiyanın fəaliyyəti dövründə əmək münasibətlərinin leqallaşdırılması istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində əmək müqaviləsi bildirişlərinin sayının 37 faiz artdığı vurğulanıb.

İclasda Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, komissiyanın Qanunvericilik və idarəetmə üzrə işçi qrupunun rəhbəri Anar Əliyevin, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini, Qeyri-formal məşğulluq nəticəsində yaranan gəlirlərin gizlədilməsinin səbəblərinin araşdırılması üzrə işçi qrupun rəhbəri İlkin Vəliyevin və rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətovun məruzələri dinlənilib.

Müzakirələrdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehtiyev, iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov və digərləri çıxış edərək müzakirə olunan məsələlərə münasibət bildiriblər.

"Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın icrası ilə əlaqədar dövlət başçısına təqdim ediləcək hesabatın layihəsi müzakirə edilərək qəbul olunub.

Komissiyanın sədri tərəfindən ölkəmizdə əmək münasibətlərinin leqallaşdırılması istiqamətində qarşıda duran vəzifələrin icrasına dair tapşırıqlar verilib.

# Azərbaycan-Böyük Britaniya münasibətləri dinamik inkişaf edir



Fevralın 22-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər, Birlik Ölkələri və İnkişaf Ofisində Parlamentlə əlaqələr üzrə dövlət katibinin müavini, Avropa üzrə dövlət naziri Leo Dokerti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycanla Böyük Britaniya arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti, müxtəlif sahələr üzrə əməkdaşlığın inkişaf perspektivləri, habelə cari regional vəziyyət müzakirə olunub.

Söhbət zamanı neft, qaz, sərmayə qoyuluşu, ticarət, nəqliyyat, "yaşıl enerji"yə keçid istiqamətində əməkdaşlığın perspektivləri, təhsil və humanitar sahələr ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov ölkələrimiz arasında qarşılıqlı inama və dəstəyə əsaslanan siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimizin dinamik şəkildə inkişaf etdiyini, rəsmi təmasların və yüksəksəviyyəli qarşılıqlı səfərlərin davam etdirilməsinin əhəmiyyətini vurğulayıb. Nazir ölkələrimiz arasında enerji sahəsində əlaqələrin xüsusi əhəmiyyətini diqqətə çatdıraraq Azərbaycanın təşəbbüsü və iştirakı ilə regionda həyata keçirilən irimiqyasli enerji layihələri haqqında ətraflı məlumat verib. Onların Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rolunu vurğulayıb. Böyük Britaniyanın şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətindən məmnunluq ifadə olunub. Eyni zamanda Birləşmiş Krallığın Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsinə verdiyi töhfəni, bu ərazilərin yenidən qurulması və bərpası işlərində onların yaxından iştirak niyyətləri təqdir olunub. Ölkələrimiz arasında təhsil sahəsində uğurlu əməkdaşlığın daha da inkişafının vacib olduğu bildirilib.

Görüş zamanı tərəflər Ermənistanla Azərbaycan arasında normallaşma prosesinin, sülh sazişi üzrə danışıqların cari vəziyyəti, Laçın yolunda etirazların müxtəlif aspektləri üzrə müzakirə aparıblar.

Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması istiqamətində ölkəmiz tərəfindən atılan addımlar barədə qarşı tərəfi məlumatlandıran nazir Laçın yolu ətrafında yaranmış son vəziyyət barədə ətraflı məlumat verərək həyata keçirilən etirazların Laçın yolunun sui-istifadəsinə və qeyri-qanuni iqtisadi fəaliyyətə qarşı olduğunu, həmçinin blokada və humanitar vəziyyət ilə bağlı iddiaların heç bir əsasının olmadığı, bu çərçivədə ölkəmizin legitim tələbləri və təhlükəsizlik maraqları barədə qarşı tərəfə məlumat verilib.

Bununla yanaşı, ölkəmizin sülh sazişinin imzalanması təşəbbüsü, bu istiqamətdə səyləri barədə qarşı tərəf məlumatlandırılıb. Sülh sazişi üzrə dekabrda keçirilməsi nəzərdə tutulan danışıqlarda Ermənistanın iştirakdan imtina etməsinə və prosesə yaratdığı maneələrə baxmayaraq, ölkəmizin prosesə sadiq qalaraq sülh sazişi mətni üzrə şərhlərin mübadiləsini həyata keçirdiyi diqqətə çatdırılıb. Ermənistanın destruktiv mövqeyindən çəkinərək danışıqlar masasına geri qayıtmasının zəruri olduğu vurğulanıb.

Böyük Britaniyanın dövlət naziri Leo Dokerti öz növbəsində ölkəsinin Azərbaycan ilə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu və Azərbaycan-Böyük Britaniya münasibətlərinin dinamik inkişaf etdiyini vurğulayıb. Bölgədə sülhə mane olan çətinliklərin aradan qaldırılmasının vacib olduğunu, bu istiqamətdə Birləşmiş Krallığın dəstək göstərməyə hazır olduğunu bildirib.

Görüşdə tərəflər arasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# QDİƏT Parlament Məclisinin komitə iclası keçirilib



Fevralın 22-də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) Hüquqi və siyasi məsələlər üzrə komitəsinin videokonfrans formatında 61-ci iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə iclasında Milli Məclisin QDİƏT PM-də nümayəndə heyətinin rəhbəri, qurumun sədr müavini Eldar Quliyev, deputat Jalə Əhmədova, QDİƏT PM-in baş katibi Asəf Hacıyev və digər üzv ölkələrin parlamentariləri iştirak ediblər. Komitədə əvvəlcə iclasın gündəliyi və 60-cı iclasın protokolu təsdiq edilib.

Sonra tədbirdə "QDİƏT-ə üzv dövlətlərdə iqtisadi təhlükəsizliyin gücləndirilməsində parlamentlərin rolu" mövzusunda məruzə təqdim edilib. Komitə üzvləri mövzu ilə bağlı fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

İclasda Milli Məclisin deputatı Jalə Əhmədova mövzu ilə bağlı çıxış edib. O, iclas iştirakçılarını salamlayaraq əvvəlcə Türkiyədə baş verən zəlzələdə həlak olanların xatirəsini yad edib, qardaş türk xalqına başsağlığı diləklərini bildirib.

Sonra millət vəkili vurğulayıb ki, Azərbaycanda qanunyaradıcılığı prosesində vətəndaşların sağlamlığı, təhsili, məşğulluğu, və sosial müdafiəsi məsələləri prioritet istiqamət təşkil edir. Bu tendensiyanın 2023-cü ilin dövlət büdcəsində də qabarıq şəkildə əks olunduğunu qeyd edən Jalə Əhmədova büdcədə əməkhaqlarının, pensiyaların, müavinətlərin, təhsil kimi sosial təminat xərclərinin artırılması tədbirlərindən danışıb. O, Azərbaycanda vətəndaşların sosial müdafiəsinə və rifahının yüksəldilməsinə xüsusi diqqət yetirildiyini bildirib.

Yekunda komitənin növbəti iclasının tarixi, yeri və gündəliyi müəyyənləşdirilib.

***"Azərbaycan"***

# Leo DOKERTİ: "Azərbaycanın təhlükəsizliyi bizim üçün Britaniyanın təhlükəsizliyi qədər vacibdir"

Fevralın 22-də ADA Universitetinin və Böyük Britaniyanın ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə "Birləşmiş Krallığın xarici siyasət prioritetləri" mövzusunda müzakirələr keçirilib.

AZƏRTAC xəbər verir ki, müzakirədə çıxış edən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər, Birlik Ölkələri və İnkişaf Ofisində Parlamentlə əlaqələr üzrə dövlət katibinin müavini, Avropa üzrə dövlət naziri Leo Dokerti ölkələrimiz arasında əməkdaşlığın əvvəllər daha çox enerji resurslarına əsaslansa da, indi müxtəlif sahələri əhatə etdiyini, gələcəkdə isə daha da şaxələnəcəyini bildirib. Ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfədən danışan nazir qeyd edib: "Azərbaycanın təhlükəsizliyi bizim üçün Britaniyanın təhlükəsizliyi qədər vacibdir".

Ölkəmizin həmçinin Avropanın enerji təhlükəsizliyinə töhfə verdiyini söyləyən nazir diqqətə çatdırıb ki, rəsmi Azərbaycan enerji və nəqliyyat sahəsində vacib rol oynayır.

Müzakirədən sonra jurnalistlərə açıqlama verən Leo Dokerti deyib: "Biz Azərbaycanla Ermənistanı sülh prosesinin və danışıqların davam etdirilməsinə çağırır və bunu təşviq edirik. Biz inanırıq ki, irəliyə getməyin ən yaxşı yolu bütün tərəflərin müsbət mühitdə müzakirələr aparmasıdır. Biz açıq şəkildə bildirmişik ki, bu proses davam edərsə, onun çoxlu dividendləri və faydası olacaq. Hər kəs sülhün olduğu gələcək istəyir. Böyük Britaniya olaraq biz bütün tərəfləri gələcək sülh prosesində səmimi şəkildə iştirak etməyə çağırırıq".

O bildirib ki, gələcək sülh əməkdaşlığa, dezeskalasiyaya və münasibətlərin normallaşmasına əsaslanır. Nazir qeyd edib ki, iqtisadi inkişaf üçün azad olunmuş ərazilərdə minaların təmizlənməsi və yaşayışın bərpası lazımdır, bu, dayanıqlı sülhə imkan yaradacaq. "Ümid edirik ki, Qafqaz regionunda liderlər birlikdə dezeskalasiya üçün və gələcək sülh üçün çalışa bilərlər. Çünki bu, xalqların da istədiyidir", - deyə Dokerti vurğulayıb.

Azərbaycanla Böyük Britaniya arasındakı əlaqələrdən danışan nazir deyib ki, iki ölkənin münasibətləri yüksək səviyyədədir. Böyük Britaniyanın Azərbaycanla xüsusilə neft-qaz sahəsində uzunmüddətli əlaqələri var. "BP" şirkəti Azərbaycanda ən böyük xarici investordur. "Uzun illər bu sahədə çox uğurlu əməkdaşlığımız olub. Lakin təbii ki, münasibətlərimiz yalnız bu sahəni əhatə etmir. Təhsil, bərpaolunan enerji, digər biznes sahələri, inşaat və başqa sahələri də qeyd edə bilərəm. Azərbaycanın çox mürəkkəb qonşuları var, lakin ölkəniz çox məsuliyyətlə hərəkət edir. Biz Azərbaycanla mövcud münasibətlərimizi çox yüksək dəyərləndiririk. Azərbaycan çox dəyərli və etibarlı tərəfdaşımızdır", - deyə Leo Dokerti diqqətə çatdırıb.

# Avronest PA-nın iclasında Ermənistanın Laçın-Xankəndi yolu ilə bağlı təklifləri rədd edilib

Avronest Parlament Assambleyasının Moldovanın paytaxtı Kişineu şəhərində keçirilən 10-cu sessiyası başa çatıb. Sessiyada Milli Məclisi parlamentin komitə sədri Tahir Mirkişilinin rəhbərliyi ilə 6 deputat təmsil edib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, 10-cu sessiyanın yekun sənədinə Ermənistan nümayəndə heyəti tərəfindən dəyişikliklər təklif olunub. Dəyişikliklər "Laçın dəhlizinin açılması", "Dağlıq Qarabağın blokadadan çıxarılması", "Azərbaycan Ordusunun Ermənistan ərazisindən çıxarılması", "ATƏT Minsk qrupunun aktivləşdirilməsi" kimi çağırışları əhatə edib.

Azərbaycan nümayəndə heyəti üzvlərinin həm ikitərəfli görüşlərdə göstərdikləri səylər, həm də komitə və plenar iclaslardakı çıxışlarda gətirdikləri arqumentlər nəticəsində Ermənistan nümayəndə heyətinin bütün layihələri assambleya nümayəndələri tərəfindən rədd edilib.

# Qarabağ probleminin həll olunduğu məkan - QARABAĞ

Artıq otuz ildir ki, beynəlxalq qurum və təşkilatlarda Qarabağ problemi ("Dağlıq Qarabağ problemi" adı ilə) müzakirə olunur.

Artıq otuz ildir ki, dünya KİV-i Qarabağ probleminə öz səhifələrində, telekanallar informasiya buraxılışlarında səxavətlə yer ayırırlar.

Artıq otuz ildir ki, dünya əhalisi əsl mahiyyətini bilməsə də, "Dağlıq Qarabağ münaqişəsi" adlı problemin mövcudluğundan xəbərdardır.

**Bu münaqişənin həlli ilə dünyanın ən böyük beynəlxalq qurumu olan BMT və onun Təhlükəsizlik Şurası məşğul oldu...**

**Bu münaqişəni həll etmək üçün qoca qitə ATƏT-in Minsk qrupunu yaratdı...**

**Bu münaqişənin həlli ilə bağlı Avropa İttifaqı, Avropa Şurası və digər qurumlar dəfələrlə müxtəlif qərarlar qəbul etdilər...**

*Bu münaqişənin həlli ilə bağlı uzun illər boyu dayanmadan çoxsaylı görüş və müzakirələr aparıldı, müxtəlif təkliflər, şərtlər irəli sürüldü, "həll paketləri" hazırlandı.*

Eyni zamanda:

- İşğalçı ilə işğala məruz qalanın kim olduğu ucadan və aydın şəkildə deyilmədi;
- Ermənistana "işğal etdiyin əraziləri tərk elə" sözləri söylənilmədi;
- Beynəlxalq hüququ pozaraq başqa dövlətin ərazisini işğal edənə heç bir təsir və təzyiq göstərilmədi;
- İşğalçıya qarşı heç bir sanksiya tətbiq olunmadı;

Əksinə, tərəflərə "mövcud reallıqla barışmaq" tövsiyə edildi.

NƏTİCƏDƏ:

- BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi və Ermənistan qoşunlarının işğal etdikləri ərazilərdən qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi havada, icrasız qaldı;
- ATƏT-in Minsk qrupu saysız-hesabsız görüş və danışıqlar aparsa da, vəzifəsinin öhdəsindən gələ bilmədi;
- Beynəlxalq hüquq ayaqlar altında tapdalandı;
- Bircə dəfə olsa belə, UNESCO-nun faktaraşdırıcı missiyası işğal ərazilərinə gələrək buradakı dağıntılar və erməni vəhşilikləri barədə dünya ictimaiyyətinə obyektiv və ətraflı məlumat vermədi;
- Hamı mövcud status-kvonu dondurmağa, Azərbaycan tərəfini işğalla barışmağa sövq etməyə can atdı;
- Hamı Azərbaycanı "münaqişənin hərbi yolla həlli variantı yoxdur" deyərək mənasız və nəticəsiz sülh danışıqlarını davam etdirməyə çağırdı.

Hətta Ermənistanın yeni rəhbəri N.Paşinyan cəzasızlıq şəraitindən o qədər qudurdu ki, "Qarabağ Ermənistandır və nöqtə" deyərək əslində işğal ərazilərindən xoşluqla çıxmayacaqlarını bəyan etdi.

❖ ❖ ❖

**Azərbaycanın işğalla heç zaman barışmayacağını daim ucadan söyləyən Prezident İlham Əliyev isə Qarabağ problemini "dəmir yumruq"la həll etdi!**

- "Tövsiyə"lərin əksinə olaraq hərbi yolla həll etdi!
- 44 gün ərzində Vətən müharibəsi aparmaqla həll etdi!
- Düşmən ordusunu darmadağın edərək, Ermənistanı diz çökdürərək həll etdi!
- Həm hərb meydanında, həm də diplomatiya və informasiya müharibəsində qazandığı möhtəşəm qələbələri ilə həll etdi!
- Düşmənin belini qıraraq, başını əzərək kapitulyasiya aktına imza atdıraraq həll etdi!

**Ən əsası, Qarabağ problemini məhz Qarabağda, Qarabağ torpağında həll etdi və bununla müqəddəs məkanımızı murdar ləpirlilərdən təmizlədi!**



**Beləliklə, bütün dünyaya sübut etdi ki, Qarabağ probleminin həll yolu məhz hərbi yolla imiş!**

Əyani şəkildə sübut etdi ki, Qarabağ problemi dünyanın, Avropanın hansısa qurumunun iclas zalında yox, məhz döyüş meydanında, özü də ikili standartlara söykənən münasibət və yanaşmalarla yox, güclü dövlətin güclü ordusu, uzaqgörən siyasəti ilə həll oluna bilərmiş!

**Bütün bunlardan sonra cənab İlham Əliyev bu dəfə dünyaya özü bəyan etdi ki, artıq Qarabağ məsələsində yeni reallıqlar yaranıb və bu reallıqlarla hamı barışmalıdır!**

*Və bu gün şərtləri diktə edən tərəf Ermənistan deyil, AZƏRBAYCANDIR!*

*Hərb meydanında düşmən ordusunu darmadağın edən Azərbaycan!*

❖ ❖ ❖

Qalib sərkərdə və məğrur dövlət başçısı cənab İlham Əliyev bu gün də Azərbaycanın şərtlərini ucadan və açıq şəkildə bəyan edir:

- Azərbaycan qalib gəlsə də, bu gün sülh tərəfdarıdır və qalan məsələləri sülh yolu ilə həll etmək niyyətindədir!
- Azərbaycan sülh sazişinin 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın bütün maddələrinin icrası yolu ilə bağlanmasında israrlıdır!
- Azərbaycanda daha "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur!
- Status məsələsi birdəfəlik cəhənnəmə göndərilib, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinin hüquqları ölkədəki digər milli azlıqların hüquqları kimi qorunacaq, onlar mövcud imkanlardan hamı kimi istifadə edəcəklər;
- Azərbaycan özünün daxili işi olan Qarabağ məsələsini daha heç bir dövlətlə, beynəlxalq qurumla müzakirə etməyəcək, heç kəsə onun daxili işlərinə qarışmasına yol verməyəcək;
- Azərbaycan Qarabağdakı heç bir qondarma qurumu və onun qeyri-legitim başçısını tanımır və qəbul etmir.

**Bütün bu məsələlərdə Azərbaycanın mövqeyi dəqiq, aydın və qətidir!**

Ermənistan isə...

❖ ❖ ❖

Müharibə dövrü çoxsaylı telefon zəngləri ilə dünya liderlərinə müraciət edərək onların zəhləsini tökən, Azərbaycan Prezidentinə minnətçi salan Ermənistanın baş naziri Paşinyan hələ də köhnə ampluasındadır!

- Hər vəchlə sülh müqaviləsinin imzalanmasını uzadır;
- "Xankəndi-Laçın yolu blokadaya alınıb" - deyə yalandan vay-şivən qopararaq özünə Avropada yeni müdafiəçilər axtarır;
- Qarabağ erməniləri üçün nə isə qoparmağa, hazırlanacaq sülh müqaviləsinə bununla bağlı nə isə salmağa can atır;
- Ermənistana Avropa İttifaqının çoxsaylı müşahidəçilərini gətirərək sərhəddə yerləşdirir;
- Moskvaya naz edir, onu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxacağı ilə hədələyir;
- Yenidən "blokadaya alınan məzlum və zavallı" erməni obrazı yaratmağa çalışır.

Amma bütün cəhdləri boş və mənasızdır!

❖ ❖ ❖

**Bu gün sülh danışıqları qalib tərəflə məğlublar arasında aparılır!**

**Sülhün şərtlərini Azərbaycan qalib dövlət olaraq diktə edir!**

*Danışıqların qalan iştirakçıları isə yalnız qərəzsiz və tərəfsiz vasitəçilər ola bilərlər!*

*Sülhün şərtləri də, Azərbaycanın mövqeyi də aydındır, bəllidir və qətidir!*

**Kimsə İlham Əliyevdən heç bir güzəşt, geriyə addım gözləməsin, çünki bu, mümkün deyil!**

Ən nəhayət, bir daha təkrar edirik:

- Qarabağın və Qarabağda yaşayanların taleyi artıq yalnız Qarabağda, məlum şərtlər və tələblər əsasında həll olunur!
- Başqa heç yerdə, heç harada və heç kəsin yersiz müdaxiləsi ilə yox!

**28 illik sülh danışıqlarından sonra yaradılan reallığı anlamaq və qəbul etmək vacibdir!**

Sülh müqaviləsinin bağlanmasının uzadılması Ermənistanın xeyrinə deyil!

Necə ki 28 illik sülh danışıqları imitasiyası sonda harada və necə nəticələndi - bunu gərək ilk növbədə Ermənistan özü unutmasın və daha heç bir havadarına arxayın olmasın!

Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransında Azərbaycanın qəti mövqeyini bir daha ortaya qoydu:

*"Biz istəyirik ki, Qarabağ məsələsi beynəlxalq gündəlikdən çıxsın. Biz imkan verə bilmərik ki, Qarabağ məsələsi hər hansı bir formada Azərbaycanla Ermənistan arasında imzalanacaq sazişə daxil edilsin. Bunu mən bu gün cənab Blinkenin iştirakı ilə keçirilmiş görüşdə də bildirmişəm. Biz istəyirik ki, sərhədlərimiz tarixi xəritələr əsasında delimitasiya olunsun. Bunun da tarixi məntiqi var. Biz istəyirik ki, Ermənistan bizə qarşı ərazi iddialarından əl çəksin və normallaşma olsun".*

Prezident İlham Əliyev həmişə dediyini edir!

Bunu təkcə Avropada yox, bütün dünyada da yaxşı bilirlər!

**Bəxtiyar SADIQOV**

# Münhendə də etiraf edildi

## Azərbaycanda uzunmüddətli inkişafı hədəfləyən layihələr icra olunur

**59-cu Münhen Təhlükəsizlik Konfransında iştirak edən Prezident İlham Əliyevin bütün çıxış və müsahibələrində olduğu kimi, keçirdiyi görüşlərdə də digər məsələlərlə yanaşı, iqtisadi əlaqələrin inkişafı diqqət mərkəzində olub. Həmin görüşlərdə iqtisadiyyatın müxtəlif sahələrindəki əməkdaşlıq, ticarət əlaqələri, ölkəmizin enerji potensialı, nəqliyyat-logistika imkanları və digər mövzular müzakirə edilib.**

Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms ilə görüşdə ötən il ölkələrimiz arasında ticarət dövriyyəsinin genişlənməsi yüksək qiymətləndirilib, qarşılıqlı ixracın artması müsbət amil kimi dəyərləndirilib. Azərbaycanın Avropanın etibarlı tərəfdaşı olduğu bir daha vurğulanıb.

Məlum olduğu kimi, ölkəmizdə bir sıra Almaniya şirkətləri fəaliyyət göstərir və onlar üçün yaxşı şərait yaradılıb. Alman şirkətləri ilə uğurlu iş təcrübəsi qazanılıb. Bu da təsadüfi deyil. Azərbaycan xarici sərmayədarlar üçün cəlbedici investisiya məkanı olduğunu təsdiqləyib. Dövlətimizin başçısı eyni zamanda ölkəmizdə azad ticarət zonasının yaradılması istiqamətində addımlar atıldığı, logistika və nəqliyyat imkanlarının artması barədə məlumat verib. Bu istiqamətdə də Almaniya şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün geniş imkanlar mövcuddur. Odur ki, Prezident İlham Əliyev Almaniyanın Şərqi Biznes Assosiasiyasının tərkibinə daxil olan şirkətləri tanışlıq məqsədilə ölkəmizə səfərə dəvət edib.

Eyni zamanda işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinin həyata keçirilməsində də alman şirkətlərinin təmsilçiliyi üçün geniş imkanlar var.

Xatırladaq ki, Azərbaycanın bərpaolunan enerji potensialı, bu sahədə başlanan uğurlu işlər bütün dünyanın diqqət mərkəzindədir. Bu məsələ Avropa Komissiyasının Prezidenti xanım Ursula fon der Lyayenin iştirakı ilə ötən il Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində imzalanmış strateji sənəddə də öz əksini tapıb. Prezident İlham Əliyev ölkəmizin həm Xəzər dənizinin Azərbaycan sektorunda, həm də qurudakı ərazilərimizdə böyük həcmdə bərpaolunan enerji potensialı olduğu barədə dəfələrlə məlumat verib. Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış dördtərəfli memorandum sahənin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir.

Təsadüfi deyil ki, Almaniya şirkətləri bərpaolunan enerji sahəsinə xüsusi maraq göstərir və bu sahədə həmin ölkə ilə əməkdaşlıq üçün böyük imkanlar var.

Bu və digər məsələlər Prezident İlham Əliyevin Avropa İnvestisiya Bankının (EIB) prezidenti Verner Hoyer ilə görüşündə də öz əksini tapıb.

EIB "Cənub qaz dəhlizi" layihəsinin icrası prosesində maliyyə tərəfdaşı kimi yaxından iştirak edib. Bank Azərbaycanın inkişaf gündəliyində duran rəqəmsal transformasiya, bərpaolunan enerji resurslarının inkişafı və ixracı, nəqliyyat bağlantılarının genişləndirilməsi konsepsiyası sahələri üzrə də ölkəmizin yaxın tərəfdaşı ola bilər.

Bu görüşdə də Azərbaycanın Avropanın enerji bazarına qaz ixracını artırdığı, böyük bərpaolunan enerji potensialına malik olduğu vurğulanıb. Dövlətimizin başçısı Azərbaycanın Orta dəhliz üzərində yerləşən ölkə olaraq nəqliyyat-logistika potensialının daha da artırılması və azad ticarət zonasının yaradılması planları haqqında məlumat verib. EIB-nin prezidenti nəzərdə tutulmuş hədəflər üzrə də Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu vurğulayıb. O, Avropa İnvestisiya Bankının xüsusilə "Yaşıl enerji" konsepsiyasını yaxından dəstəklədiyini bildirib. Prezident İlham Əliyevin ölkənin maliyyə resurslarından müdrikliklə istifadə etdiyini və Azərbaycanda uzunmüddətli inkişafa xidmət göstərən layihələrin icra olunduğunu vurğulayıb.

Prezident İlham Əliyev Münhendə həmçinin İtaliyanın "Leonardo" şirkətinin baş icraçı direktoru Alessandro Profumo ilə görüşüb. İtaliya Avropa İttifaqı məkanında ölkəmizin ən yaxın tərəfdaşıdır. Son aylar ərzində İtaliyanın üç nazirinin Azərbaycana səfəri iki ölkə arasında əlaqələrin inkişafının real göstəricisidir. İtaliyanın "Leonardo" şirkəti ilə əməkdaşlığın da xüsusi önəmi var.

Prezidentimiz görüşdə müdafiə sənayesi sahəsində mövcud olan əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini vurğulayıb. Enerji sahəsində də əməkdaşlığın uğurla inkişaf etdiyini diqqətə çatdırıb. "Ansaldo Energia" şirkəti ölkəmizdə bu günlərdə təməli qoyulan 1280 MVt gücündə istilik-elektrik stansiyasının inşasında iştirak edir. İtaliya şirkətləri işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinə də töhfə verir.

"Leonardo"nun baş icraçı direktoru Azərbaycanla müxtəlif sahələrdə artıq əməkdaşlıq münasibətlərinin mövcudluğunu və müdafiə sənayesi sahəsində əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduqlarını deyib, təmasları bundan sonra da davam etdirəcəklərini bildirib.

Münhendə Prezident İlham Əliyevin İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə də görüşü olub. Bərzani Azərbaycanın əldə etdiyi nailiyyətlər münasibətilə təbriklərini çatdırıb, dövlətimizin başçısının uzaqgörən siyasəti nəticəsində ölkəmizin uğurla inkişaf etdiyini vurğulayıb.

Söhbət zamanı bildirilib ki, İraqın Kürdüstan Regionu ilə iqtisadiyyat, ticarət sahələrində əlaqələrin inkişaf etdirilməsi üçün böyük potensial var. Ona görə də biznes dairələri arasında birbaşa əlaqələrin qurulması, həmçinin biznes şurası formasında müxtəlif təsisatların yaradılması məsələlərini nəzərdən keçirmək olar.

Bir sözlə, Münhen görüşləri növbəti dəfə göstərdi ki, Azərbaycanın etibarlı tərəfdaş kimi dünyada nüfuzu daha da artır və daha çox ölkə, qurum, şirkət bizimlə əməkdaşlıq etmək istəyir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Daha iki qazimiz müalicələrini tamamlayaraq vətənə qayıdıb

Ağır yaralanan iki qazimiz - Nəsirov Kənan Fizuli oğlu və İsmayılov Bəxtiyar Etibar oğlu Türkiyədə müalicələrini tamamlayaraq Vətənə qayıdıblar.



Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Onların müalicəsi ölkəmizin ixtisaslaşmış səhiyyə müəssisələrində davam etdiriləcək.

Xatırladaq ki, bu günə qədər 178 qazimiz müalicə üçün Türkiyəyə göndərilib. Onlardan 173-nün müalicə proseduru artıq uğurla yekunlaşıb və Vətənə qayıdıblar.

Qazilərin qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də fond tərəfindən təmin edilir.

"YAŞAT" Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir. Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin fondun 8110 "Çağrı Mərkəzi" fəaliyyət göstərir.

# Sülh, dostluq, mehribanlıq

## Mehriban xanım Əliyevanın bəşəri dəyərlərə xidmət edən xoşməramlı missiyası



**"...Sizə ehtiyacı olanların yanında olacaqsınız, yardımınıza ehtiyacı olanlara əl tutacaqsınız..." Humanizmi, xeyirxahlığı yaşam amalına çevirən, insanlara dayaq-dəstək olmağı həyat məramı sayan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın özünün də ifadə etdiyi kimi, həyat fəlsəfəsinin əsasını insanpərvərlik təşkil edir.**

Həm də Azərbaycan dövlətinin, xalqının rifahı və inkişafı naminə uğurlu fəaliyyət göstərən Birinci vitse-prezident Mehriban Əliyevanın insanlıq naminə həyata keçirdiyi xoşməramlı missiyası ölkəmizin hüdudlarını aşaraq dünyaya yayılıb.

### Daim xalqın yanında

Çoxşaxəli fəaliyyətində xüsusilə sosial müdafiəni prioritet müəyyənləşdirən Mehriban xanım Əliyeva Azərbaycandakı bütün kimsəsiz uşaqların doğma hamisi, mənəvi anasıdır. Daun, autizm, talassemiya, əqli, fiziki qüsurlu, xərçəng, şəkər və digər amansız xəstəliklərlə mübarizə aparan uşaqlara daim şəxsi qayğı və diqqət göstərən birinci xanımın təşəbbüsü ilə Azərbaycanda 18 yaşadək, eləcə də digər əlilliyi olan şəxslərin tibbi reabilitasiyası, müalicəsi üçün yüksəksəviyyəli mərkəzlər yaradılıb.

Şəhid ailələri və qazilərə daim diqqət və qayğı göstərən Mehriban xanım onların müalicəsi, sağlamlıqlarının bərpası, işlə, evlə təminatı məsələlərinin həlli istiqamətində mühüm fəaliyyət göstərir.

Aprel döyüşlərində də, Vətən müharibəsinin o çətin anlarında da Mehriban xanım daim xalqımızla bərabər, onlara dayaq, dəstək idi.

Torpaqlarımızın azadlığının sevincini də, şəhid və yaralılarımızın kədərini də xalqımızla birgə yaşayan Mehriban xanım "Bu gün mən şəhidlərimizin ailələri ilə birlikdə kədərlənir, Vətən naminə canından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideynlərin qarşısında baş əyirəm" deyə 2020-ci il dekabrın 4-də paylaşımı ilə hər kəsi dərindən duyğulandırmışdı.

Aprel döyüşlərində, eləcə də Vətən müharibəsində şəhid və qazi olanların ailələrinə Heydər Əliyev Fondu tərəfindən hərtərəfli kömək göstərilir, yaralılar yüksəktexnologiyalı protezlərlə təmin olunur, dünyanın ən nüfuzlu xəstəxanalarına müalicəyə göndərilir. Bu kateqoriyadan olan insanlarımızın sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm işlər görülür.

### Türkiyə, səninləyik!

Ümumiyyətlə, dünyada tolerantlıq mühitinin formalaşması, multikultural dəyərlərə qayğı və diqqət, sivilizasiyalararası dialoqların təşviqi istiqamətində vacib beynəlxalq fəaliyyət həyata keçirən və bəşəri dəyərlərə mühüm töhfələr bəxş edən Mehriban xanımın bu xoşməramlı missiyası insanlığın, dolayısı ilə həyatın var olmasına hesablanıb.

Elə bu il fevralın 6-da qardaş Türkiyədə baş verən və xeyli sayda insan təlefatına səbəb olan zəlzələdən zərər çəkən türkiyəli-bacı qardaşlarımıza ilk gündən dəstək göstərməsi də Azərbaycanın birinci xanımının xeyirxah əməllərinin daha bir nəcib göstəricisidir.

Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladığını bildirdiyi paylaşımında Mehriban xanım xüsusilə vurğulamışdı ki, "Türkiyə xalqının kədəri bizim kədərimizdir".

Fəlakətin baş verdiyi ilk zamanlardan Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və göstərişi ilə zəlzələdən zərərçəkənlərə yardımın və zəruri ehtiyacların göndərilməsi təkcə humanitar yox, mənəvi baxımdan da mühüm əhəmiyyət kəsb edir.

Xatırladaq ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, fevralın 9-dan etibarən fond Türkiyəyə humanitar yardım təyyarələri göndərir. Bu yardımlar çərçivəsində zəlzələdən zərər çəkmiş şəxslərə müxtəlif dərman preparatları, tibbi ləvazimat və avadanlıqlar, isti geyimlər, qızdırıcısı olan çadırlar, generatorlar, istilik radiatorları, çöl üçün qızdırıcılar, dizel yanacaqlı kaloriferlər, axtarış-xilasetmə işlərinə dəstək məqsədilə ləvazimat və avadanlıqlar çatdırılır.

Həmçinin Türkiyənin ölkəmizdəki səfirliyinin zəlzələ bölgəsinə yardım göstərilməsi məqsədilə Azərbaycan vətəndaşlarına çağırışına qoşulan Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi fevralın 8-dən humanitar kampaniyaya start verib. Bu kampaniya çərçivəsində vətəndaşlardan toplanan humanitar yardımlar Heydər Əliyev Fondunun dəstəyi ilə zəlzələ bölgəsinə çatdırılır.

### "Azərbaycanlı olduğuma görə çox qürurluyam!"

Eləcə də bu dar günlərdə türkiyəli bacı-qardaşlarına əllərindən gələn köməyi etməyə çalışan Azərbaycan xalqının xeyirxah əməlləri də Mehriban xanımın nəzər diqqətindən yayınmayıb. Birinci xanım xalqının humanizm əməlləri ilə duyduğu qürur hissini paylaşımında belə ifadə edib: "Hər zaman birlik və həmrəylik nümayiş etdirərək bir-birinə kömək etməyə hazır olmaq, əl-ələ verərək çətinliklərdən və sınaqlardan birlikdə üzüağ çıxmaq Azərbaycan xalqının ən gözəl xüsusiyyətlərindən biridir. Qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələnin ilk saatlarından Türkiyə xalqına göstərdiyiniz dəstək xalqlarımız arasında qardaşlıq, dostluq münasibətlərinin, qarşılıqlı sevginin sarsılmazlığının, möhkəmliyinin, əbədiliyinin növbəti əyani sübutudur".

Zəlzələ bölgəsində axtarış-xilasetmə işlərinə cəlb olunmuş xilasedicilərimizə, xəsarət alanların sağlamlığına qovuşması üçün əlindən gələni əsirgəməyən tibb işçilərimizə, faciədən zərər çəkmiş Azərbaycan vətəndaşlarının müəyyən edilməsi və təxliyəsi ilə məşğul olan diplomatik xidmət əməkdaşlarına, hadisələri yorulmadan işıqlandıran KİV nümayəndələrinə təşəkkürünü bildirən Mehriban xanım, ölkəmizdə başlanılmış yardım kampaniyasına qoşulan hər bir soydaşımıza, yerli şirkət və təşkilatlara, xüsusilə yardımtoplama məntəqələrində gecə-gündüz var gücü ilə işləyən könüllülərə, polislərə, bir sözlə, qardaş Türkiyə xalqının yanında olmağa çalışan hər kəsə minnətdarlığını bildirib: "İnsansevərliyinizə, mərhəmətinizə və şəfqətinizə görə çox sağ olun! Azərbaycanlı olduğuma görə çox qürurluyam!"

### "İlham qardaşıma, Mehriban bacıma öz adımdan, millətim adından çox təşəkkür edirəm!"

Prezident İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın timsalında Azərbaycan dövlətinin Türkiyə xalqına göstərdiyi bu dəstək və dayaq qardaş ölkədə rəğbətlə qarşılanıb və ölkənin ən ali şəxslərindən tutmuş sıravi vətəndaşlarına qədər hər kəsdə minnətdarlıq oyadıb.

Xatırladaq ki, fevralın 9-da zəlzələ bölgəsinə səfər edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qaziantep Hava Limanında humanitar yardım gətirən Heydər Əliyev Fondunun əməkdaşları ilə görüşmüş, Azərbaycan dövlətinin və xalqının Türkiyədəki faciə ətrafında səfərbər olmasına görə təşəkkürünü bildirmişdi.

"İlham qardaşıma, Mehriban bacıma öz adımdan, millətim adından çox təşəkkür edirəm!" söyləyən Türkiyə Prezidenti, Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycanın yanında olduğu kimi, indi də belə çətin gündə Azərbaycanın Türkiyənin yanında olduğunu vurğulamışdı: "Biz tək bu gün deyil, ölənədək birlikdə olacağıq. Bir millət, iki dövlət olaraq yola davam edəcəyik!"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğan da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya zəlzələdəki çoxsaylı insan təlefatı ilə bağlı verdiyi başsağlığına görə tviterdəki paylaşımında təşəkkür edib.

Eləcə də fevralın 16-da Türkiyənin birinci xanımı tviterdəki paylaşımında zəlzələnin fəsadlarının aradan qaldırılması ilə bağlı göstərdiyi dəstəyə görə Azərbaycana və Mehriban xanıma təşəkkür edib: ""Sizin dərdiniz bizim dərdimizdir" deyən azərbaycanlı qardaşlarımızı unutmayacağıq. Humanitar yardıma, xüsusən də axtarış-xilasetmə qrupları göndərdiyinə görə Azərbaycana və əziz dostum Mehriban Əliyevaya minnətdarlığımı bildirirəm".

### Dünyamızı qoruyaq

Hər kəsin xatirindədir, 2005-ci ildə baş verən və xeyli sayda insan təlefatına səbəb olan dəhşətli zəlzələ zamanı Azərbaycan Pakistana yardım edən ilk ölkələr sırasında idi. 2007-ci ildə Pakistanın Müzəffərabad şəhərində təbii fəlakət zamanı dağılmış 150 nəfərlik məktəbin yerində Heydər Əliyev Fondu tərəfindən 500 nəfərlik müasir məktəb binası inşa edilmişdi. 2012-ci ildə isə yenidən əsaslı təmir olunmuş Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva adına qızlar məktəbinin açılış mərasimi keçirilmişdi. Azərbaycanın birinci xanımının Pakistan xalqına, xüsusən də uşaqlara göstərdiyi qayğı yüksək dəyərləndirilmişdi.

Həmçinin Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun Luvr muzeyində İslam mədəniyyəti bölməsinin təşkili, Strasburq və Fransanın digər regionlarındakı kilsələrin təmirində yaxından iştirakı, Romada Müqəddəs Marçellinio və Pietro, həmçinin Müqəddəs Sebastian katakombalarının bərpası və sair kimi xeyli sayda həyata keçirilən bəşəri irsə xidmətləri bütün dünyada böyük əks-səda doğurub, nümunə götürüləsi örnəyə çevrilib.

Gətirdiyimiz bu bir neçə nümunədən də göründüyü kimi, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın həyata keçirdiyi çoxşaxəli xoşməramlı fəaliyyət bəşəri dəyərlərin yaşadılmasına, dünyada sülhə, dostluğa, mehribanlığa xidmət missiyasıdır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Heydər Əliyev ideyaları işığında reallaşan humanizm missiyası

Xeyirxahlığı, dar gündə insanlara, kimsəsizlərə, təbii fəlakətdən zərərçəkənlərə əl tutması ilə dünyada özünə böyük hörmət və nüfuz qazanan Heydər Əliyev Fondu xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ideyaları əsasında formalaşıb. Bəşəri və müqəddəs missiya daşıyan bu fonda Mehriban xanım Əliyeva rəhbərlik edir.

Ulu Öndərin aylarla, illərlə ailə söhbətlərinin iştirakçısı olaraq o böyük şəxsiyyətin xalqımızın xoşbəxt gələcəyi və ölkəmizin müstəqilliyi uğrunda nələr düşündüyünü, nələr hiss etdiyini, nələr planladığını Prezidentimiz İlham Əliyev qədər Mehriban Əliyeva da bilirdi.

Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin milli dövlətçilik ideyalarının həyata keçirilməsi, ölkəmizin gələcəyi ilə bağlı arzularının reallığa çevrilməsi baxımından missiya Azərbaycan Prezidenti İlham Əliyevin üzərinə düşür və bu missiya şərəfli səviyyədə gerçəkləşir.

Mənəvi sahədə isə bu irsi Mehriban xanım Əliyeva Ulu Öndərin ideyaları işığında formalaşdırdığı Heydər Əliyev Fondu tərəfindən yaşadır və inkişaf etdirir.

Heydər Əliyev Fondunun əsrin fəlakətinə çevrilmiş qardaş Türkiyə Cümhuriyyətində baş verən zəlzələdə zərərçəkənlərə hər cür humanitar yardımlar etməsi, əvvəllər isə Pakistanda zəlzələdən zərər çəkən qızlar məktəbinin yenidən inşası, Hollandiyada, Rusiyada, Gürcüstanda, Rumıniyada, Misirdə və digər ölkələrdə təhsil ocaqlarının müasirləşdirilməsinə kömək, Afrika ölkələrinin qeyri-maddi mədəni irsinin qorunmasına yardımlar etməsi, daha sonra Parisdə Versal sarayının parkında yerləşən abidələrin bərpası, habelə Strasburqda Müqəddəs Məryəm kafedral kilsəsinin yenidən qurulması görünən reallıqlardır.

Fondun təşkilatçılığı və dəstəyi ilə Qəbələdə ənənəvi beynəlxalq musiqi festivallarının təşkili, dünyanın fərqli ölkələrində icra edilən beynəlxalq layihə və proqramlarla, konfrans və toplantılarla bəşəriyyətə Azərbaycan incəsənətinin möhtəşəmliyi təlqin edilir.

Prezident İlham Əliyev gündəmə gətirdiyi "insan kapitalı" ideyası ilə gələcəyin dəyərli insanlarını yetişdirməyə çalışır. Bu, zəmanəmizin ən qiymətli sərvətidir. Bu xəzinənin mərkəzində ilk növbədə təhsil dayanır. Ona görə də əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan təhsilə qayğı, gənclərin savadlı və sağlam böyüməsi Heydər Əliyev Fondunun prioritet istiqamətlərindəndir.

Ötən ilin əvvəllərində böyük Azərbaycan mesenatı Hacı Zeynalabdin Tağıyevin paytaxtın görməli yerində heykəlinin açılışında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev çıxışı zamanı demişdir: "Xeyriyyəçilik sahəsində Cənubi Qafqazda ən böyük təsisat Heydər Əliyev Fondudur. Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir".

Ümummilli Lider Heydər Əliyevin ideyalarının həyata keçirilməsini özünün əsas fəaliyyət proqramı kimi qəbul edən fonda 10 may 2004-cü ildən Mehriban xanım Əliyeva rəhbərlik edir. Ötən illər ərzində Mehriban xanımın tövsiyə və təşkilatçılığı ilə ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən valideyn himayəsindən məhrum uşaqlara kömək, uşaq evlərinin, internat məktəblərinin abadlaşdırılması və maddi bazalarının yaxşılaşdırılması da daxil edilməklə təhsil, səhiyyə, mədəniyyət sahələrində irimiqyaslı proqramlar həyata keçirilib.

Humanizm, mərhəmət, vətənpərvərlik və xeyirxahlıq missiyası ilə böyük nüfuz qazanmış Heydər Əliyev Fondunun layihələri sırasında ölkəmizdə təhsil sisteminin inkişafı əsas yerlərdən birini tutur. Fondun rəhbərliyi altında neçə illər bundan öncə ölkəmizdə "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı"nın hazırlanıb həyata keçirilməsi öz uğurlu bəhrəsini vermişdir. Xatırladaq ki, respublikamızdakı uşaq evləri və internat məktəblərindəki mövcud problemlərin həll olunmasına yönəldilən bu layihə fondun təhsil sahəsindəki fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. İlkin mərhələdə aparılmış monitorinqdən sonra uşaq müəssisələrində təhsil və sosial sahədə problemlərin həllinə yönələn 4 mühüm istiqamət: texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq prioritet kimi müəyyənləşdirilmişdir.

Heydər Əliyev Fondunun layihələri sırasında əsas istiqamətlərdən biri də gənc nəslin maariflənməsi və yüksək yer tutmasıdır. Məhz bu məqsədlə fond bütün imkanlarından istifadə etməklə məktəb tikintisinə daha çox diqqət ayırır. Neçə illərdir Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən yeni məktəb binalarının inşasına istiqamətlənib. Layihə çərçivəsində paytaxtda və regionlarda müasir standartlara cavab verən məktəb binaları inşa edilib, neçə-neçə məktəb cari və ya əsaslı təmir olunaraq müasir avadanlıq, istilik sistemi, zəngin kitabxana, əyani vəsait və kompüter avadanlığı ilə təchiz olunub.

Heydər Əliyev Fondunun səhiyyə sahəsində əks-səda doğuran layihələrindən biri "Diabetli uşaqlara ən yüksək qayğı"dır. Layihə çərçivəsində ölkəmizdə diabet xəstəliyinə düçar olmuş 14 yaşınadək uşaqlar müntəzəm olaraq lazımi miqdarda insulin preparatları və şpris-qələmlərlə təmin edilirlər. "Talassemiyasız həyat naminə" layihəsi isə bu xəstəliyin geniş yayıldığı ölkələrdən hesab olunan Azərbaycanda yüksək qiymətləndirilir.

Heydər Əliyev Fondu 2020-ci ilin sentyabrında başlanan və tarixi zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində fəallıq göstərərək qələbəyə öz töhfəsini verdi. Həm daxili, həm beynəlxalq arenada həqiqətləri çatdırmaq, ölkəmizə, xalqımıza haqq işində dəstək olmaq üçün mümkün olan hər şeyi etdi. Fondun əməkdaşları hazırda erməni işğalından azad olunmuş bölgələrdə tikinti-quruculuq işlərinə səfərbər olublar.

Heydər Əliyev Fondunun ötən dövrdə Azərbaycanın görkəmli alimlərinin, yazıçı və bəstəkarlarının yubileylərinin keçirilməsi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, UNESCO-nun "Dünya irs siyahısı"na İçərişəhərin, Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin, Atəşgahın və digər tarixi abidələrin, habelə mədəni irs nümunələrinin daxil edilməsi Azərbaycan milli mədəniyyətinin dünya miqyasında təbliği sahəsində də xidmətləri diqqətəlayiqdir. Fond xalqın varlığını özündə yaşadan mənəvi-intellektual irsə həssaslıqla yanaşaraq onun dünya arenasında təbliğində fəal iştirak edir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Azərbaycan və Qazaxıstanın Daxili İşlər nazirlikləri arasında memorandum imzalanıb



Qazaxıstanın daxili işlər naziri, polis general-polkovniki Marat Axmetjanovun başçılıq etdiyi nümayəndə heyəti fevralın 22-də ölkəmizə ikigünlük rəsmi səfərə gəlib.

Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, nazir Marat Axmetjanov və onu müşayiət edən şəxslər Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin abidəsi önünə əklil qoyub, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Həmin gün Azərbaycan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov qazaxıstanlı həmkarı və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Nazir Vilayət Eyvazov bu səfərin iki dost ölkənin daxili işlər orqanları arasında əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini ifadə edib. Xalqlarımızı sıx dostluq, qarşılıqlı inam və hörmət tellərinin bağladığını, dövlətlərimiz arasındakı əlaqələrin hər zaman strateji tərəfdaşlıq xarakteri daşıdığını xatırladıb. Nazir hər iki dövlət başçılarının müəyyənləşdirdikləri strategiyaya uyğun olaraq son illər bütün sahələrdə dinamik inkişafın müşahidə edildiyini, bu kontekstdə Azərbaycan və Qazaxıstan Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın daha da dərinləşdiyini diqqətə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov ikitərəfli əlaqələrin, xüsusilə də transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə səylərin, qabaqcıl təcrübə və operativ informasiya mübadiləsinin, həmçinin yaradılmış normativ-hüquqi bazanın ilk növbədə xalqlarımızın və dövlətlərimizin mənafelərinə, bölgədə təhlükəsizliyin təmininə xidmət etdiyini vurğulayıb.

Polis general-polkovniki Marat Axmetjanov ölkəsindəki mövcud kriminogen durum, cinayətkarlıqla mübarizənin vəziyyəti, ictimai asayişin mühafizəsi, həyata keçirilən islahatlar barədə məlumat verib. O, rəhbərlik etdiyi qurumun Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu və səfərinin bu məqsədə xidmət etdiyini bildirib.

Sonra nazirlər "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Qazaxıstan Respublikasının Daxili İşlər Nazirliyi arasında memorandum"u imzalayıblar.

Qəbulda ölkəmizin Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov, Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkarimov və Azərbaycan Daxili İşlər Nazirliyinin Qazaxıstandakı nümayəndəsi Ənvər Zöhrabbəyli iştirak ediblər.

Səfər çərçivəsində qonaqlar DİN-in Daxili Qoşunlarının "N" saylı hərbi hissəsinə, Polis Akademiyasına, Təhlükəsiz Şəhər Xidmətinə və "102" - Zəng mərkəzinə gedərək həmin qurumların fəaliyyəti ilə yaxından tanış olublar.

# Məramı bəlli olmayan missiya

*Əvvəli 1-ci səh.*

## Aİ-nin müşahidə missiyasının sərhədə göndərilməsi qanunsuzdur

Aİ-nin müşahidə missiyasının sərhədə göndərilməsinin qanunsuz olduğunu deyən Milli Məclisin deputatı Aydın Mirzəzadə bildirib ki, missiya göndərilməzdən əvvəl bu məsələ Azərbaycanla müzakirə olunmalı və razılaşdırılmalı idi. Ermənistan hərzamankı kimi sülh danışıqlarından qaçmaq üçün müxtəlif yollara əl atır. Beləliklə, Ermənistanın müraciəti ilə Aİ bölgəyə icazəsiz missiya göndərmək qərarını alıb.

Missiyanın məramının məlum olmadığını deyən deputat qeyd edib ki, ortaya müəyyən suallar çıxır: "Bu missiya nəyi yoxlayacaq, nəyə qiymət verəcək? Onların fəaliyyəti sülh prosesini, həqiqətən, sürətləndirəcəkmi? Eyni zamanda missiyanı göndərən rəsmilər Azərbaycan ərazilərinin atəşə tutulması ilə missiyanın gəlməsinin eyni vaxta düşməsini düşünürmü? Təxribatın ilhamvericilərinin və kənar siyasi dəstəkləyicilərinin olduqlarını anlayırlarmı?"

Deputatın fikrincə, Aİ-nin bu missiyasının problemin həllinə heç bir köməyi olmayacaq. Bu, Ermənistanın növbəti siyasi şousudur. Azərbaycan Ermənistanla sülh müqaviləsi bağlamaq istiqamətində bütün addımları atıb, bunun üçün konkret təkliflər də verib. Əgər Aİ problemi həll etmək istəyirsə, buna dəstək verməliydi, regiona silahlı nümayəndələrini göndərməli deyildi.



Missiyanın göndərilməsinin yanlış addım olduğunu deyən A.Mirzəzadə onu da əlavə edib ki, Ermənistanın Aİ-dən xahişi üzərindən məsuliyyəti atması kimi qiymətləndirilməlidir. "Bu, Azərbaycanla sülh müqaviləsi bağlamaq və Zəngəzur dəhlizinin açılmasını ermənilərin bacardıqları qədər ləngitmək istəyindən doğan bir məsələdir. Ermənistan məsələnin həllində maraqlı deyil, buna görə də konstruktiv dialoq aparmır. Ermənistan ictimaiyyətində və iqtidarında hələ də Azərbaycan torpaqlarına iddia əhvali-ruhiyyəsi var. Bunlara baxmayaraq, Azərbaycan suveren hüquqlarını qorumaq əzmindədir", - deyə A.Mirzəzadə qeyd edib.

## Missiya mümkün sülh üçün təhdid kimi çıxış edir

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov isə bildirib ki, Avropa İttifaqının həm Azərbaycana, həm də Ermənistana müşahidə missiyası göndərməsi məsələsi Praqa görüşündə gündəmə gəlib. Deputat qeyd edib ki, Prezident İlham Əliyev missiyanın Azərbaycan ərazisində fəaliyyətə başlamasını qəbul etməyib, lakin Ermənistanın Azərbaycanla sərhəd bölgələrinə iki ay müddətinə 40 nəfərlik müşahidə missiyası göndərməsinə razılıq verib: "Avropa İttifaqının, konkret olaraq Fransanın qeyri-sağlam davranışları ilə Praqa görüşündə missiya ilə bağlı müəyyən olunan çərçivələr pozulub. Cənab



İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində də ifadə etdiyi kimi, bu, çox məyusedici bir məqamdır. Biz nəyisə razılaşdırırıqsa, hətta şifahi olsa da buna əməl etməliyik. Daha sonra növbəti missiya göndərilməsi ilə bağlı məsələlər gündəmə gəldi və nəhayət, yanvarın ortalarında Avropa Şurasının "Siyasi məsələlər və təhlükəsizlik", eləcə də "Böhranlı idarəetmə üzrə mülki işlər" komitələrində, habelə Avropa İttifaqı səfirlərinin görüşündə müzakirələrdən sonra Ermənistana ikiillik missiya göndərilməsi qərara alındı".

B.Məhərrəmov vurğulayıb ki, Azərbaycanın məsələ ilə bağlı mövqeyi aydındır. O bildirib ki, Prezident İlham Əliyevin yanvarın 10-da müsahibəsində ifadə etdiyi kimi, növbəti missiyanın göndərilməsi xoşagəlməz bir haldır. Bu, təhlükəsizliyi artırmayacaq, əksinə, danışıqlar formatı böyük sarsıntıya məruz qalacaq.

Deputat dedi ki, dövlət başçısı sülh danışıqlarında vasitəçi rolunda çıxış edə bilməsi üçün Avropa İttifaqının özünü dürüst aparmalı olduğunu vurğulayıb və xatırladıb ki, Avropa İttifaqı Fransanın "müstəsna xidmətləri" ilə ən azı bu missiya məsələsində özünü dürüst aparmalıdır. Bu məqamda haqlı suallar meydana çıxır. "Məsələn, prosesin gedişatı necə ola bilər? Yaxud Azərbaycanla Ermənistan arasında sərhədlər müəyyən edilmədən Avropa İttifaqının missiyası fəaliyyətini hansı sərhədlərlə bağlı müəyyən edəcək? Otuz il rəsmən işğalçı kimi tanınan Ermənistanın təcavüzkar, revanşist tələb və iddiaları əsasındamı? Digər tərəfdən, sirr deyil ki, Ermənistan sərhədlərin delimitasiya və demarkasiyasını səbəbsiz yerə ləngidir. Azərbaycan isə dəfələrlə bəyan edib ki, uzunmüddətli müzakirələr aparmağa niyyətimiz yoxdur və vəziyyət bu cür davam edərsə, sərhədlərimizi tarixi ədalətə əsaslanaraq özümüz təkbaşına müəyyən edəcəyik. Proses bu məcrada inkişaf edərsə, Avropa İttifaqının müşahidə missiyasının davranışı necə olacaq? Yaxud mümkün sərhəd qarşıdurmasında Avropa İttifaqı qərəzsiz qalmağı bacaracaqmı? Ötən ilin oktyabrından başlanan missiyanın hesabatlarında Ermənistan tərəfindən dəfələrlə pozulan atəşkəslə bağlı məlumatlar varmı?", - deyə B.Məhərrəmov əlavə edib.

Deputat onu da bildirib ki, bütün bunlar ciddi sual doğuran məqamlardır və missiyanın tərəfsizliyi əsaslı şübhə doğurur. Digər mühüm məqam isə istənilən ölkənin sərhədləri yaxınlığına həmin dövlətin icazəsi və razılığı olmadan hər hansı adda missiyanın yerləşməsi özlüyündə təhdid kimi qiymətləndirilir, həmçinin özünümüdafiə hüququ və mexanizmlərini zərurətə çevirir. Başqa sözlə, Avropa İttifaqının missiyası özlüyündə sabitləşdirici meyar yox, daha çox mümkün sülh üçün təhdid kimi çıxış edir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan və Latviya prokurorluqları arasında əlaqələr uğurla inkişaf edir

Fevralın 21-də baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Latviyanın baş prokuroru Yuris Stukansın dəvəti ilə Riqada işgüzar səfərdə olub.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyəti ölkəmizin Riqadakı səfirliyinə gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstünü ziyarət edib, Ulu Öndərin əziz xatirəsi ehtiramla yad olunub.

Daha sonra Baş Prokurorluqda ikitərəfli görüş keçirilib. Azərbaycanlı həmkarını salamlayan baş prokuror Yuris Stukans ölkələrimizin prokurorluq orqanları arasında münasibətlərin son illər ərzində inkişaf etdiyini məmnunluq hissi ilə vurğulayıb. Kamran Əliyev qonaqpərvərliyə görə təşəkkürünü bildirərək Azərbaycan Prezidenti İlham Əliyevin və Latviyanın siyasi rəhbərliyinin səyləri nəticəsində ikitərəfli əlaqələrimizin uğurla inkişaf etdiyini məmnunluqla vurğulayıb.

Baş prokuror Azərbaycan və Latviya arasında yüksək strateji tərəfdaşlıq əlaqələri kontekstində prokurorluqlar arasında əməkdaşlığın müsbət dinamikasını qeyd edib, cinayətkarlığa, o cümlədən korrupsiyaya və çirkli pulların yuyulmasına qarşı mübarizənin və əmlakın bərpası sahəsində birgə səylərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edib. Görüşdə ikitərəfli formatda və beynəlxalq təşkilatlar çərçivəsində prokurorluqlarımız arasında əməkdaşlığın genişləndirilməsinin önəmi qeyd edilib. Qarşılıqlı təlimlərin təşkil olunması və əlaqələrin inkişaf etdirilməsi məqsədilə qurumlar arasında əməkdaşlıq haqqında anlaşma memorandumunun imzalanması müzakirə olunub. Həmçinin konkret cinayət işləri üzrə hüquqi yardım haqqında sorğuların icrası ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində baş prokuror Latviyanın Korrupsiyanın Qarşısının Alınması və Korrupsiyaya qarşı Mübarizə Bürosunun (KNAB) rəhbər heyəti ilə görüşərək korrupsiyanın qarşısının alınması, bu sahədə törədilmiş cinayətlərin istintaqı, maarifləndirmə və beynəlxalq əməkdaşlıq məsələləri müzakirə olunub.

Görüşlərdə ölkəmizin Latviyadakı fövqəladə və səlahiyyətli səfiri Elnur Sultanov iştirak edib.

# Azərbaycanda məişət zorakılığı işləri üzrə mühafizə orderləri ilə bağlı hesabat hazırlanıb

Fevralın 22-də "Qadınlara qarşı zorakılıq və məişət zorakılığı işləri üzrə mühafizə orderləri: beynəlxalq standartlar və Azərbaycanın milli təcrübəsi" hesabatının təqdimatı ilə bağlı yekun konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, hesabat Avropa İttifaqı və Avropa Şurasının "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsi çərçivəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə əməkdaşlıq çərçivəsində hazırlanıb.

Tədbir Avropa Şurasının Bakıdakı Ofisinin rəhbərinin müavini Kirilo Boiçeniukun moderatorluğu ilə keçirilib. Avropa Şurasının rəsmisi aparılan işlərin davamlılığını təmin etmək üçün nəticələrə nəzər yetirmək, öyrənilən dərsləri müəyyən etmək, digər ehtiyacları qiymətləndirmək və gələcək fəaliyyətlərin müzakirəsi baxımından tədqiqatın əhəmiyyətini vurğulayıb.

Konfransda çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, hesabat daxili qanunvericilik bazasının və siyasətin beynəlxalq standartlara daha da uyğunlaşdırılmasında Azərbaycanın səlahiyyətli orqanlarına dəstək olmaq məqsədi daşıyır. Həmçinin hesabat Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planının icrasına öz töhfəsini verəcək.

B.Muradova bildirib ki, Dövlət Komitəsinin fəaliyyət istiqamətlərindən ən vacibinin gender bərabərliyinin təmin olunması və ona mane olan problemlərin aradan qaldırılması üçün əlaqələndirici funksiyasından istifadə edərək bütün tərəfdaşlarla birgə işin qurulmasıdır. O, Dövlət Komitəsi ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən fəaliyyətləri diqqətə çatdırıb.

Dövlət Komitəsinin sədri qeyd edib ki, məişət zorakılığı ilə bağlı üç ili əhatə edən Milli Fəaliyyət Planı çərçivəsində qanunvericilik bazasının təkmilləşdirilməsi üzrə təkliflər paketinin hazırlanması, zərərçəkmiş şəxslərin müdafiəsi üzrə institusional mexanizmlərin yaradılması, peşəkar bacarıqların gücləndirilməsi və məlumatlılığın artırılması ilə bağlı görülmüş işlər Azərbaycan hökumətinin bu məsələdə həssaslığını nümayiş etdirir.

O bildirib ki, hazırda təqdim edilən hesabatın hazırlanması prosesində ortaya çıxan nəticələr, Azərbaycandakı mövcud vəziyyət, ayrı-ayrı ölkələrin qabaqcıl təcrübəsi ilə müqayisədə aparılmış təhlillərin nəticəsindən irəli gələn tövsiyələr bu istiqamətdə görüləcək işlərin konkretləşməsinə kömək edəcək.

Komitə sədri bildirib ki, ölkəmizdə mühafizə orderlərinin tətbiqi ilə bağlı müəyyən çətinliklər var. Bu da mühafizə orderi məsələsinin düzgün dərk edilməməsi və onun tətbiqi sahəsində nöqsanlarla bağlıdır. Bir qayda olaraq qısamüddətli mühafizə verilir, təhlükə davam etdikcə uzunmüddətli mühafizə orderlərinin verilməsi gecikir. Bununla bağlı təkliflər paketi hazırlanıb. Bura zərərçəkmiş şəxslərin müdafiəsi üzrə çevik və adekvat mühafizə mexanizminin yaradılması, pulsuz hüquqi yardım verilməsi daxildir.

Konfransa onlayn formatda qoşulan Avropa Şurası, Gender Bərabərliyi Bölümünün rəhbəri Katerina Boloqnez layihə çərçivəsində həyata keçirilən işlərdən bəhs edib. Qeyd edib ki, layihənin icrası müddətində Azərbaycanda qadınlara qarşı zorakılıq və məişət zorakılığı sahəsində qanunvericilik və siyasət bazasının beynəlxalq standartlara daha da uyğunlaşdırılması sahəsində işlər görülüb. Təcili mühafizə orderlərinin vacibliyinə toxunan Katerina Boloqnez bu sahədə Azərbaycanda önəmli addımların atıldığını söyləyib.

Tədbirdə Avropa Şurasının məsləhətçisi Roza Loqar, AQUPDK-nin şöbə müdiri Taliyə İbrahimova mühafizə orderləri üzrə hesabatı təqdim edib, əsas nəticə və tövsiyələri iştirakçıların diqqətinə çatdırıblar.

Sonra hesabatın müzakirəsi aparılıb.

# Ortamüddətli xərclər çərçivəsinin tətbiqi və nəticəəsaslı büdcə mexanizminə keçidlə bağlı görülmüş işlər müzakirə olunub



Maliyyə Nazirliyinin təşkilatçılığı ilə "Təhsil sektorunda ortamüddətli xərclər çərçivəsinin (OMXÇ) tətbiqi və nəticəəsaslı büdcə mexanizminə keçid" mövzusunda seminar keçirilib.

Seminarda Prezident Administrasiyası, Nazirlər Kabineti, Hesablama Palatası, mərkəzi icra hakimiyyəti orqanları və digər dövlət qurumlarının rəhbərləri və nümayəndələri, habelə Milli Məclisin Elm və təhsil, İqtisadi siyasət komitələrinin üzvləri, eləcə də beynəlxalq təşkilatların təmsilçiləri, ekspertlər və tədqiqatçılar iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, seminarın əsas məqsədi OMXÇ-nin tətbiqi və nəticəəsaslı büdcə mexanizminə keçid prosesi ilə bağlı görülmüş işlər, o cümlədən təhsil sektorunda bu sahədə icra olunan tədbirlərin nəticələri barədə məlumat vermək, habelə islahat prosesində qarşıya çıxan çağırışları və növbəti addımları tərəf-müqabillərinin iştirakı ilə müzakirə etmək olub.

Maliyyə naziri Samir Şərifov çıxışında son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bir çox sahələrdə olduğu kimi, dövlət maliyyəsinin idarə olunmasının təkmilləşdirilməsi sahəsində də genişmiqyaslı islahatlar aparıldığını qeyd edib, bu islahatların prioritet istiqamətlərindən birinin məhz ortamüddətli xərclər çərçivəsinin tətbiqi və nəticəəsaslı büdcə mexanizminə keçid olduğunu diqqətə çatdırıb.

Elm və təhsil naziri Emin Əmrullayev isə ölkəmizdə təhsilin inkişafı istiqamətində görülən işlərdən və hədəflərdən danışıb. O, nazirliyin ortamüddətli xərclər çərçivəsinin pilot qaydada tətbiqi ilə bağlı təcrübəsini, o cümlədən nəticəəsaslı büdcə tərtibinin gətirdiyi yeni imkanlar və çağırışlar barədə məsələləri seminar iştirakçılarının diqqətinə çatdırıb. Nazir son illər Azərbaycan Respublikası Prezidentinin təhsil sahəsində təsdiq etdiyi dövlət proqramlarının, imzaladığı fərman və sərəncamların, xüsusilə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədinin nəticəəsaslı idarəetməyə keçid üçün vacib əhəmiyyət daşıdığını vurğulayıb.

Sonra Maliyyə Nazirliyinin Aparatının Ortamüddətli Xərclər Çərçivəsinin Hazırlanması Mərkəzinin direktor müavini Rəşad Həsənov "Təhsil sektorunda OMXÇ-nin tətbiqi və nəticəəsaslı büdcə mexanizminə keçid" mövzusunda təqdimatla çıxış edib.

# Azərbaycan və Qazaxıstan arasında hərbi-texniki sahədə əlaqələr müzakirə edilib

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin (MSN) də iştirak etdiyi Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Əbu-Dabi şəhərində keçirilən "İDEX-2023" Beynəlxalq Müdafiə Sərgi və Konfransı davam edir.

Bu barədə AZƏRTAC-a MSN-in Mətbuat xidmətindən məlumat verilib. Sərgi çərçivəsində müdafiə sənayesi naziri Mədət Quliyev fevralın 22-də Qazaxıstanın sənaye və infrastrukturun inkişafı nazirinin müavini Azamat Beysbekov ilə görüşüb.

Görüşdə Azərbaycan və Qazaxıstan arasında hərbi-texniki sahədə əlaqələrin cari vəziyyəti və gələcək əməkdaşlığın inkişafına dair geniş fikir mübadiləsi aparılıb.

Nazir Mədət Quliyev daha sonra BƏƏ-nin "Calidus" LLC şirkətinin rəhbəri Farij Mohammadla görüşüb. Görüşdə qarşılıqlı hərbi-texniki əməkdaşlığın perspektivləri müzakirə olunub, digər maraq doğuran məsələlər haqda danışılıb.

Qeyd edək ki, "İDEX-2023" Beynəlxalq Müdafiə Sərgi və Konfransı işini fevralın 24-dək davam etdirəcək.

# Ehtiyat hər evin yaraşığıdır

## Ölkəmizdə fərdi mənzillərin 90 faizi sığorta edilməyib

Mənzillərin müxtəlif hadisələr səbəbindən zərər görməsi tez-tez rastlaşdığımız haldır. Bu hallarda, vaxtında riskləri doğru dəyərləndirməyən, baş verə biləcək xoşagəlməz hadisələri əvvəlcədən nəzərə almayan vətəndaşlar çətin vəziyyətə düşürlər. Əmlakı ziyan görmüş şəxs evini vaxtında sığortalamayıbsa, onun xərclərini qarşılayan olmur. Ona görə də mülk sahibi olan vətəndaşlar mənzillərini, ümumilikdə əmlaklarını sığortalatdırmağa maraq göstərməlidirlər.

Ölkəmizdə daşınmaz əmlakın sığortalanması "İcbari sığortalar haqqında" qanunla tənzimlənir. Daşınmaz əmlakın sığortası ölkəmizdə mövcud olan yaşayış və qeyri-yaşayış əmlakları üçün məcburidir. Qanuna əsasən, daşınmaz əmlakının icbari sığortası olmayan fiziki şəxslərə 30, vəzifəli şəxslərə 80, hüquqi şəxslərə isə 200 manat məbləğində cərimə nəzərdə tutulub. Bakıdakı ev və mənzillərin illik sığorta haqqı 50, Gəncə, Sumqayıt və Naxçıvanda 40, digər şəhər və rayonlarda isə 30 manatdır. Müvafiq olaraq, paytaxtdakı mənzillərə 25 min manat,



Gəncə, Sumqayıt və Naxçıvandakılara 20 min, digər şəhər və rayonlardakı mənzillərə isə 15 min manat sığorta təminatı verilir. Qeyri-yaşayış obyektlərində isə sığorta tarifləri həmin əmlakın yerləşdiyi yerə, təyinatına və həcminə görə müəyyən edilir.

Qanundan irəli gələn tələblərə görə, yanğın, ildırım düşməsi, məişətdə və istehsalatda istifadə olunan qazın partlayışı, elektrik naqillərində qısaqapanma, maşınların, aparatların partlayışı, su, istilik, kanalizasiya kəmərlərinin və yanğınsöndürmə sistemlərinin qəzası, habelə qonşu tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən daxil olan su nəticəsində subasma və digər oxşar hallar sığorta hadisəsidir. Həmçinin təbii fəlakətlər - zəlzələ, vulkan, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi də daşınmaz əmlakın icbari sığorta növü üzrə sığorta hadisəsi hesab olunur.

### Vətəndaşların məlumatsızlığı sığortalama faizinə mənfi təsir göstərir

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bildirib ki, ölkəmizdə evlərin və mənzillərin sığortalanması ilə bağlı əsas çatışmazlıq bu sahədə maarifləndirmə işinin yüksək səviyyədə aparılmamasıdır: "Xüsusilə bölgələrdə vətəndaşlar evlərini və ya mənzillərini sığortalamadığı üçün fövqəladə hallar zamanı dəymiş ziyanı qarşılamaqda çətinlik çəkirlər. Sığortalama isə ev sahibini gözlənilməz hadisələr nəticəsində yaranan xərclərdən azad edir, vətəndaşa dəymiş ziyan sığorta şirkəti tərəfindən ödənilir. Təəssüf ki, xüsusilə bölgələrdə yaşayan vətəndaşlarımızın məlumatsızlığı sığortalama faizinə mənfi təsir göstərir. Lakin Bakı, Sumqayıt və digər böyük şəhərlərdə də mənzillərin sığortalanma faizi yüksək deyil. Bu, sığorta sahəsində yeni mexanizmlərin tətbiqini zəruri edir. Mənzil alqı-satqısı zamanı sığortalanma işi həyata keçirilsə də, bu, sonrakı mərhələdə davamlı və kütləvi xarakter daşımır. Bu baxımdan evlərin və mənzillərin sığortalanması qaydaları üzərində daim iş aparılmalıdır".

Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı direktoru Elmar Mirsalayev də qəzetimizə açıqlamasında bildirib ki, hazırda ölkə vətəndaşlarının icbari əmlak sığortasına olan yanaşması ürəkaçan deyil: "Statistikaya əsasən, respublikadakı yaşayış obyektlərinin 90 faizi, qeyri-yaşayış obyektlərinin isə 70 faizi icbari qaydada sığorta edilməyib. Bu, sığorta növü üzrə bazar potensialının böyük olduğunu göstərir. Deməli, sistemli tədbirlər nəticəsində ölkə üzrə daşınmaz əmlakın sığortalanma faizi 2-3 dəfə artırıla bilər".

E.Mirsalayev qeyd edib ki, ümumi tələblərə görə, hazırda qeyri-yaşayış obyektlərinin daşınmaz əmlakın icbari sığortası üzrə proseslərə nəzarəti Fövqəladə Hallar Nazirliyi, yaşayış obyektlərinin icbari əmlak sığortasına nəzarəti isə yerli icra hakimiyyəti orqanları həyata keçirir: "Bununla yanaşı, ölkəmizdə sığorta sektoruna nəzarət və tənzimləmə qurumu olan Mərkəzi Bank, Azərbaycan Sığortaçılar Assosiasiyası, o cümlədən digər sığorta iştirakçıları respublika ərazisində daşınmaz əmlakın icbari sığortası növünün təşviqi ilə bağlı maarifləndirmə tədbirləri həyata keçirir, proseslərin elektronlaşdırılması ilə bağlı əsaslı addımlar atırlar. Hazırda Mərkəzi Bankın təşəbbüsü ilə daşınmaz əmlakların icbari sığortası üzrə elektron sistemin yaradılması üzərində iş aparılır. Bu sistem ölkəmizdə mövcud olan və sığortalanmamış daşınmaz əmlakların sığortaya cəlb olunmasını təmin edəcək".

### Müştərək sığorta biznesinin tətbiqi vacibdir

Hüquqşünas Əkrəm Həsənov deyib ki, ölkəmizdə daşınmaz əmlakın sığortalanması işinə maraq azdır: "Daşınmaz əmlakın sığortalanması könüllü deyil. Lakin məsələ burasındadır ki, evini və ya mənzilini sığortalamayanlar üçün cərimə nəzərdə tutulsa da, bu, yerli icra hakimiyyəti orqanları tərəfindən, demək olar ki, tətbiq edilmir. Bu, ciddi problemdir. Təxminən 3-4 il əvvəl sığorta şirkətləri binalara elan vurub, vətəndaşları daşınmaz əmlaklarını sığortalamağa dəvət edir, əks halda cərimə olunacaqlarını bildirirdilər. Təəssüf ki, bu da ciddi nəticə vermədi".

Ə.Həsənov qeyd edib ki, ölkəmizdə sığorta şirkətlərinə etibar azdır. Onun sözlərinə görə, bunun səbəbi sığorta şirkətlərinin bir sıra hallarda sığorta ödənişini etməmək üçün bəhanələr gətirmələridir.

Mütəxəssislərin fikrincə, sığorta şirkətlərini, eləcə də vətəndaşları daşınmaz əmlakları sığortalamağa stimullaşdırmaq üçün müştərək sığorta modelindən istifadə edilməlidir. Ənənəvilikdən fərqli olaraq, müştərək sığorta modelini tətbiq edən şirkətlər vətəndaşlara əvvəlcədən məlumat verirlər ki, ödənişlərdən yığılan məbləğin müəyyən hissəsi, misal üçün 30 faizi şirkətə ayrılır, qalan 70 faizlə isə vətəndaşların sığorta xərcləri qarşılanır. Sığorta xərcləri az olduğu təqdirdə və həmin 70 faiz maliyyə vəsaiti xərclənmədiyi halda isə, qalan pul vətəndaşlara geri qaytarılır. Yaxud vətəndaş həmin vəsaitlə əmlakını növbəti il də sığortalamaq imkanı əldə edir.

Ə.Həsənov deyib ki, müştərək sığorta fərqli maliyyə modelidir: "Bu maliyyə modelindən ölkəmizdə yalnız aqrar sahədə istifadə edilir. Digər sahələrdə isə yalnız ənənəvi sığorta biznesi işləyir. Müştərək sığorta ilə məşğul olan şirkətlərin xərcləri ödəməmək üçün bəhanə gətirməyə səbəbləri olmur. Bu, həm də vətəndaşları evlərini və ya mənzillərini sığortalamağa həvəsləndirir".

Hüquqşünas qeyd edib ki, ənənəvi sığortalamada gözlənilməz hadisə nəticəsində dəymiş zərər digər sığorta olunanlardan yığılmış ödənişlər hesabına şirkət tərəfindən qarşılanır: "Mənzil zərər görmədiyi halda isə vətəndaşın pulu ona qaytarılmır. Təbii ki, sığorta şirkətlərinin qazanc mənbəyi də budur. Ona görə sığorta şirkətləri müəyyən hallarda xərcləri qarşılamaqdan yayınmağa çalışırlar. Bu, ənənəvi sığorta biznesinin ən təhlükəli və zəif tərəfidir".

Görünən odur ki, ölkəmizdə daşınmaz əmlakın sığortalanması zəif inkişaf edib. Lakin mülk sahibləri bu məsələyə ciddi yanaşmalı, daşınmaz əmlaklarını vaxtında sığortalatdırmalıdırlar. Həmçinin vətəndaşlar daşınmaz əmlakın sığortalanması üçün həvəsləndirilməli, bu sahədə monitorinq və nəzarət gücləndirilməlidir.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# ASELSAN bütün gücünü zəlzələ bölgəsinə səfərbər edib








**Fevralın 6-da Türkiyədə 10 bölgəni və 13 milyonluq əhalinin yaşadığı ərazini əhatə edən güclü zəlzələ baş vermişdir. Böyük fəlakətlə nəticələnən zəlzələdə 10 minlərlə insan dağıntılar altında qalaraq həyatını itirmiş, milyonlarla insan isə evsiz-eşiksiz vəziyyətə düşmüşdür.**




Zəlzələnin baş verdiyi andan etibarən bütün Türkiyə və Türkiyəni özünə dost, qardaş bilən ölkələr hadisə yerinə yardım üçün tələsib. Eyni zamanda Türkiyənin aparıcı müdafiə sənayesi şirkəti ASELSAN da bir çox şirkət və qurumlar kimi ölkənin imdadına yetişib. Zəlzələnin elə ilk saatlarında ASELSAN şirkəti 5 milyon manatlıq yardımla hadisə yerinə üz tutub və sonra daha 10 milyon manatlıq yardımla dəstək vermək qərarına gəlib.

Zəlzələdən zərərçəkənlərə yardım məqsədilə təşkil olunan "Türkiyə Bir Ürək" kampaniyasında Müdafiə Sənayesi Komitəsi tərəfindən təxminən 325 milyon manatlıq yardım paketində ASELSAN xüsusi olaraq yer alıb.

ASELSAN tərəfindən hazırlanmış texnologiyalar zəlzələ zamanı və sonrakı dövrdə fasiləsiz olaraq fəaliyyət göstərib və bu gün də işini davam etdirir. Belə ki, bölgədə qurulan rabitə sistemləri, o cümlədən Jandarma İnteqrasiya Rabitə və İnformasiya Sistemi (JEMUS) zəlzələnin ilk saatlarından etibarən fasiləsiz olaraq istifadə olunur. ASELSAN termal kameraları həyat əlaməti olan insan istisini tapmaq üçün axtarış-xilasetmə qruplarının xidmətinə verilib. Həyat qurtaran yerli respiratorlar xəstəxanalara dəstək verməkdə, zəlzələdən zərərçəkmiş insanları yaşatmağa və nəfəs almalarına yardımçı olmaqda davam edir.

Bütün bunlarla yanaşı, ASİL Dərnəyi nəzdində ASELSAN heyəti tərəfindən könüllü olaraq yaradılan axtarış-xilasetmə qrupları fəlakətin təsirlərinin ən çox hiss olunduğu Hatayda dağıntılarda axtarış-xilasetmə işləri həyata keçirilmişdir. ASELSAN tərəfindən quraşdırılan Fəlakət və Logistika Mərkəzinə fəlakətdən sağ çıxan vətəndaşlar qəbul edilmişdir. Yaşayış, qidalanma, sağlamlıq, təhsil və logistika imkanları olan mərkəzin qurulması üçün ASELSAN heyəti gecə-gündüz çalışmaqdadır.

Bundan əlavə, Azərbaycanda ASELSAN-ın 100 faizlik sərmayəsi ilə yaradılan və bu il 25 illik yubileyini qeyd edən "ASELSAN Bakü" şirkəti də qardaş Türkiyədə baş vermiş zəlzələnin səbəb olduğu fəciənin tez bir zamanda aradan qaldırılmasına dəstək olmaq məqsədilə Azərbaycandan "Qardaş Köməyi" Platformasına qoşulmuş, fəlakət bölgəsinə 1 tırdan çox geyim, çadır, yataq və digər əşyalar göndərmişdir. Şirkət hazırda da işçi heyəti ilə Türkiyədə konteyner və çadır şəhərciklərinin quraşdırılmasına dəstək verməkdədir. Xüsusilə belə çətin zamanlarda ASELSAN kimi şirkətlərin faydası daha yaxşı başa düşülür.

Fəlakətin fəsadlarının tez bir zamanda aradan qaldırılması məqsədilə ASELSAN "dövlətimizin və millətimizin yanındayıq, biz birlik və həmrəyliklə bunun öhdəsindən gələcəyik" - deyərək ilk gündən etibarən həm mühəndislik gücünü, həm də sistemlərini bölgə üçün səfərbər etmişdir. Belə bir zamanda zərərçəkənlərə var gücü ilə dəstək olmağa çalışan ASELSAN göndərdiyi yardımlarla bərabər həm də öz milli texnologiyaları - radio stansiyaları, rabitə sistemləri, səhiyyə sistemləri və ərazidəki işçi heyəti ilə Türkiyə dövlətinin və xalqının yanında olmağa davam edir.

# Yaponiya Azərbaycanın etibarlı tərəfdaşıdır

Dostun yaxını, uzağı olmur. Yetər ki, onların arasındakı münasibətlər tarixin sınağından çıxmış olsun. Məhz Azərbaycan-Yaponiya münasibətlərini belə bir dostluğa nümunə göstərmək olar. Beynəlxalq münasibətlər sistemində mühüm yer tutan Yaponiya Çinin, Koreyanın və Rusiyanın şərqində yerləşən adalar ölkəsidir. Sakit okeandakı 6.852 adadan ibarət arxipelaqda yerləşən bu ölkə dünya sivilizasiyasının özünəməxsus mərkəzlərindən biri olmuşdur.

Bir qayda olaraq bu ölkəni qədim çağlardan bəri "Gündoğar ölkə" adlandırırlar. Hər il fevralın 23-ü (Yaponiyanın yeni, 126-cı imperatoru Naruhitonun doğum günü) Yaponiyada milli bayram kimi xüsusi mərasimlə qeyd olunur. Artıq yapon tarixində "Hey sey" dövrü başa çatmış və yeni "Reyva" (uğur, sülh və harmoniya), yəni imperator Naruhitonun hakimiyyət devizi altında yeni dövr başlanmışdır.

Özünəməxsus tarixə malik olan yapon xalqı dünya mədəniyyətinə mühüm töhfələr verib. Hazırda isə dünyanın iqtisadi həyatında mühüm yerlərdən birini tutur. Belə ki, BMT, G7, G8 və G20 platformalarının üzvü olan Yaponiya dünyanın iqtisadi nəhənglərindən birinə çevrilmişdir.

Dünyada və regionda gedən hərbi-siyasi proseslərin təsiri bu ölkədən də yan keçməyib. O, müharibə elan etməmək istəyini rəsmi olaraq özünün Əsas Qanununda bəyan etsə də, dünyanın ən böyük 8-ci hərbi büdcəsinə malikdir. Həmişə silahlı qüvvələrindən ancaq müdafiə və beynəlxalq sülhü qorumaq məqsədilə istifadə etdiyini bəyan edir. Yüksək yaşayış səviyyəsinə və insani inkişaf göstəricisinə malik olan Yaponiyanın bu imkanlarından əhali səmərəli surətdə faydalanır.

Çox zəif təbii və enerji resurslarına malik olmasına baxmayaraq, bu ölkə XX əsrin ikinci yarısında bütün dünyaya ən yüksək modernləşmə və inkişaf nümunəsi göstərə bilib. O, əsas diqqətini intellektual və yüksək texnologiyaya əsaslanan sahələrin inkişafına yönəldib. Torpaqlarının yalnız 13 faizi kənd təsərrüfatı üçün istifadə olunur.

Yaponiyanın ixrac etdiyi əsas məhsullar nəqliyyat vasitələri, elektrik cihaz və məişət avadanlıqları, dəmir və polad məmulatları, yarımkeçiricilərdir. Onun əsas ixracat bazarları Çin, ABŞ, Cənubi Koreya, Tailand və Honkonqdur. Ölkənin əsas idxalat bazarları isə Çin, ABŞ, Avstraliya, Səudiyyə Ərəbistanı, BƏƏ, Cənubi Koreya və Qətər sayılır.

Azərbaycan ilə Yaponiya arasında əlaqələr Orta əsrlərə gedib çıxır. Hətta yapon imperatorları tərəfindən Səfəvi şahlarına bahalı hədiyyələr də göndərilmişdir. Sovetlər dönəmində də yapon mütəxəssislərinin yardımı ilə Azərbaycanda bir sıra infrastruktur sahələr yaradılmışdı. Bakıda Yaponiya ilə əməkdaşlıq nəticəsində "AZON" zavodu inşa edilmişdi. Texniki təchizatına görə, bu zavodun SSRİ-də bənzəri yox idi. Həmçinin Bakıda yapon mütəxəssislərinin iştirakı və yapon texnologiyasının köməyi ilə məişət kondisionerləri zavodu tikilərək istifadəyə verilmişdi. Bu zavod ildə 400 min ədəd kondisioner istehsal etmək gücünə malik olan Yaponiyanın məşhur "Toşiba" şirkətinin lisenziyası əsasında keçmiş sovet məkanında qurulan yeganə müəssisə idi.

Yaponiya 1991-ci il dekabrın 28-də Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. 1992-ci il sentyabrın 7-də Azərbaycanla Yaponiya arasında diplomatik əlaqələr quruldu. Təsadüfi deyil ki, Azərbaycanla diplomatik münasibətlərinin qurulmasının 30-cu ildönümü münasibətilə Yaponiyanın ölkəmizdəki səfirliyinin təşəbbüsü ilə 2022-ci il "Azərbaycan-Yaponiya Dostluq ili" elan olundu.

Əlamətdar haldır ki, hələ 2000-ci ildə Yaponiya hökuməti tərəfindən regionda ilk dəfə bu ölkənin səfirliyi məhz Azərbaycanda açılmışdır. Azərbaycanın Tokiodakı səfirliyi isə 2005-ci il oktyabrın 12-də açılıb. Azərbaycan hazırda Yaponiyanın Cənubi Qafqaz regionundakı əsas strateji tərəfdaşı kimi çıxış edir. Bu birincilik Yaponiyanın Azərbaycana verdiyi önəmin bariz nümunəsidir.

O dövrdən etibarən iki ölkə arasında siyasi münasibətlər normal məcrada inkişaf edir. Hökumətlərarası əlaqələr getdikcə güclənir. Nazirlər səviyyəsində qarşılıqlı əlaqələr həyata keçirilir.



Yaponiya, Böyük İpək yolunun bərpası təşəbbüsünə fəal dəstək vermiş, bu məsələdə rəsmi Bakı ilə Tokionun maraqları tamamilə üst-üstə düşmüşdür. Nəticədə 1998-ci il martın 10-da "Azərbaycan Respublikası və Yaponiya arasında əməkdaşlığın genişlənməsi haqqında" xüsusi saziş imzalanmışdır. Saziş çərçivəsində qısa müddətdə Yaponiyanın köməyi ilə Bakı, Gəncə, Sumqayıt, Mingəçevir və başqa şəhərlərdə bir çox müəssisələr müasirləşdirilmişdir.

Yaponiya Azərbaycana iri məbləğdə güzəştli kreditlər və qrant yardımları ayırır. Yapon şirkətləri ölkəmizdə "Şimal-1" və "Şimal-2" elektrik stansiyalarının tikintisinə texniki və layihələşdirilməsinə güzəştli şərtlərlə 165 milyon dollar, həmçinin "EP-300"-ün etil-polietilen zavodunun qurulmasına 75 milyon dollar kredit vermiş, həmçinin tibb avadanlıqlarının satın alınması üçün qrant layihələrini reallaşdırmışdır. Azərbaycanın 56 rayonunda təhsil, kənd təsərrüfatı, su təchizatı və suvarma sahələrində 268-dən çox kütləvi qrant layihəsi həyata keçirmişdir. Bundan əlavə, ərzaq mallarının istehsalının inkişafı məqsədilə Azərbaycana 3 milyon 250 min dollarlıq qrant, səhiyyə sahəsində inkişaf və yenidənqurma üçün 1,7 milyon dollar məbləğində humanitar yardım ayırmışdır.

Yaponiya həmçinin Azərbaycanda xəstəxanaların təchizatının və respublikanın yeyinti sənayesinin inkişafının təmin edilməsi məqsədilə qrant ayırmışdır. Bu ölkə tam orta məktəblərin əsaslı təmirində və yenilərinin tikilməsində də yaxından iştirak edir. Yaponiyadan Azərbaycana maşınlar, nəqliyyat vasitələri, dəmir və polad məmulatları ixrac olunur. Yaponiya isə Azərbaycandan əsasən neft və neft məhsulları idxal edir.

Bir sıra beynəlxalq məsələlərə baxışda mövqeləri üst-üstə düşən Azərbaycan və Yaponiya dövlətləri müharibələri, zorakılığı qətiyyətlə pisləyir, bir-birinin ərazi bütövlüyünü dəstəkləyir, münaqişələrin həllində dinc vasitələrə üstünlük verirlər. Qarşılıqlı münasibətlərin inkişafı Avrasiya arealında iqtisadi tərəqqiyə təkan verən mühüm amillərdən biridir.

Yaponiyanın "İtochu" şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" və Bakı-Tbilisi-Ceyhan layihələrinin həyata keçirilməsində mühüm rol oynamışdır. Elektrik enerjisi sistemlərinin tədqiqatı ölkəmizdə enerji sektorunda investisiya imkanlarının genişləndirilməsinə yol açır. Yaponiya hökuməti bu layihə üçün 32,9 milyard yen, təxminən 509 milyon manat həcmində kredit ayırmışdır.

Ötən dövr ərzində mədəni əlaqələr də geniş vüsət almışdır. Bu çərçivədə elm və təhsil sahəsində əlaqələr müsbət məcrada inkişaf edir. 2022-ci il aprelin 28-də Azərbaycan Dillər Universitetində Yapon Dili Departamentinin açılışı keçirildi. BDU-nun Şərqşünaslıq fakültəsində yapon dili və ədəbiyyatı kabineti fəaliyyət göstərir. Tələbələrə eyni zamanda Asiya və Afrika ölkələri Tarixi kafedrasının müəllimləri tərəfindən "Yaponiya tarixi" fənni də tədris olunur.

Ötən ilin aprelində Yokohama şəhərində Bakı Musiqi Akademiyasının 100 illiyinə və Yaponiya ilə Azərbaycan arasında diplomatik əlaqələr qurulmasının 30 illiyinə həsr olunmuş qala-konsert keçirilmişdir. Tədbir çərçivəsində bəstəkar Qara Qarayevin not kitablarının təqdimat mərasimi də təşkil edilmişdir. Elə həmin vaxtdan etibarən bu ölkədə Qara Qarayevin əsərlərinin çap olunmasına başlanılıb.

Göründüyü kimi, həyatın müxtəlif sahələrində qarşılıqlı münasibətlər ildən-ilə daha da möhkəmlənir. Bu münasibətlər etibarlı tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Möhkəm əminliklə demək olar ki, Uzaq Şərqdə və Cənubi Qafqazda sülh və iqtisadi tərəqqiyə xidmət edən Azərbaycan-Yaponiya tərəfdaşlığı digər ölkələr üçün də nümunə olacaqdır.

*Atamoğlan MƏMMƏDLİ,*
*BDU-nun dosenti*

# Pakistanla nəqliyyat, İKT və innovasiyalar sahəsində əməkdaşlığa dair məsələlər müzakirə edilib



Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev ölkəmizdə səfərdə olan Pakistanın İnvestisiyalar üzrə Şurasının federal naziri Çaudri Salik Hüseyn və neft üzrə dövlət naziri Musadik Məsud Malik ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanla Pakistan arasında nəqliyyat, İKT və innovasiyalar sahəsində əməkdaşlığa dair məsələlər müzakirə edilib.

İki ölkə arasında "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində tranzit daşımaların həyata keçirilməsi, hava nəqliyyatı ilə sərnişin daşımalarının artırılması və rəqəmsal inkişaf sahəsində təlim və inkubasiya mərkəzlərinin yaradılması ilə bağlı fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Türkiyə hərbi qulluqçularının iştirakı ilə döyüş hazırlığı məşğələləri keçirilir









Müdafiə nazirinin 2023-cü il üzrə təsdiq etdiyi plana uyğun olaraq mühəndis bölmələri ilə döyüş hazırlığı üzrə məşğələlər keçirilir.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla xəbər verir ki, xüsusi hazırlanmış mühəndis şəhərciyində Azərbaycan Ordusunun və Türkiyə Silahlı Qüvvələrinin Mühəndis Qoşunlarının hərbi qulluqçularının iştirakı ilə keçirilən məşğələlər zamanı istehkamçılar ərazinin kəşfi, minaaxtaranlar vasitəsilə minaların və partlamamış döyüş sursatlarının aşkarlanaraq zərərsizləşdirilməsi, eləcə də digər tapşırıqları praktiki olaraq icra edirlər.

Məşğələlərin keçirilməsində başlıca məqsəd mühəndis təminatını yerinə yetirən hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin və döyüşə hazırolma vərdişlərinin, eləcə də silahlanmada olan müasir mühəndis texnikası və avadanlıqlarından səmərəli istifadə etmə üzrə bacarıqlarının təkmilləşdirilməsidir.

# Laçında Ekoloji məsələlər üzrə işçi qrupun iclası olub

Laçın şəhərində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Ekoloji məsələlər üzrə işçi qrupun iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri və Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Şuşa şəhəri Dövlət Qoruq İdarəsinin, Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları iştirak ediblər.

İclası açan işçi qrupun rəhbəri, ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev bildirib ki, Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın tədbirlər planında Ekologiya və Təbii Sərvətlər Nazirliyi 16 tədbirin əsas, 25 tədbirin digər icraçı qurumu kimi müəyyən olunub. Nazirlik tərəfindən bu tədbirlərin icrası istiqamətində azad edilmiş ərazilərin torpaq-iqlim şəraitinə uyğun olaraq ümumilikdə 66 hektara yaxın sahədə 46 mindən çox ağac tingi əkilib, yerüstü su ehtiyatlarının qiymətləndirilməsi məqsədilə 10 çay üzərində 11 hidroloji avtomat stansiyanın quraşdırılması işləri həyata keçirilib, eləcə də Zəngilan rayonunda "ağıllı kənd" ərazisində avtomat aqrometeoroloji stansiya quraşdırılıb. İşğaldan azad edilmiş ərazilərdə ekosistemin bərpası məqsədilə meşəbərpa, yeni yaşıllıq sahələrinin salınması, xüsusi mühafizə olunan təbiət ərazilərində infrastrukturun bərpası tədbirləri ilə yanaşı, fauna növlərinin reintroduksiyası layihələri də həyata keçirilir. Bu məqsədlə ötən il oktyabrın 19-20-də 33 baş ceyran Cəbrayıl rayonu ərazisinə buraxılıb.

Həmçinin 2022-ci ildə Zəngilan, Qubadlı və Füzuli rayonlarının ərazisindən axan Bəsitçay, Həkəriçay, Köndələnçay və Bərgüşad çaylarına 408 min, eləcə də Suqovuşan və Xaçınçay su anbarlarına 400 min qızılxallı forel və çəki cinsli (ağ amur, ağ qalın alın) balıq körpələri buraxılıb. Nazirlik tərəfindən reintroduksiya və su bioresurslarının artırılması layihələrinin davamlı olaraq həyata keçirilməsi nəzərdə tutulub. İclasda AMEA-nın tərkibində fəaliyyət göstərən elmi-tədqiqat institutları tərəfindən aparılmış bioloji, radioekoloji, mikrobioloji monitorinqlərin nəticələri haqqında, o cümlədən Laçın rayonunun bioloji müxtəlifliyi, flora və faunası, Azərbaycan Respublikasının "Qırmızı kitab"ına düşmüş və arealları içərisində Laçın rayonunun da olduğu növlər haqqında ümumi bəhs olunub.

Həmçinin işğaldan azad edilmiş ərazilərdə mineral xammal ehtiyatlarının monitorinqi, təftişi, axtarışı və qiymətləndirilməsi işləri barədə tədbir iştirakçılarına məlumat verilib. Laçın rayonu ərazisində ehtiyatları müvafiq qaydada təsdiq olunmuş 40 faydalı qazıntı yatağı mövcuddur. Bu yataqlar mineral tərkibinə görə çox müxtəlif olub, filiz, qeyri-filiz və mineral su yataqlarından ibarətdir. Bu yataqlar müxtəlif təyinatlı tikinti materialları (sement xammalı, üzlük daşı, vermikulit, civə, mişar daşı, tikinti daşı, qum-çınqıl, əlvan daş, gil) və mineral su yatağından ibarətdir. Laçın rayonu ərazisində yerləşən faydalı qazıntı yataqlarının potensialından istifadə etməklə işğaldan azad edilmiş ərazilərin bərpası və inkişafında geniş istifadə oluna bilər. Həmçinin Laçın rayonu ərazisində bir çox faydalı qazıntı təzahürləri mövcuddur ki, bu da gələcəkdə rayon ərazisində yeni faydalı qazıntı yataqlarının aşkarlanmasının böyük potensialının olduğunu göstərir.

Daha sonra işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələrin ekoloji ekspertizası, kənd təsərrüfatı, bərk məişət tullantılarının idarə olunması sahələrində görülən işlər haqqında məlumat verilib.

Sonda Laçın rayonunun ekoloji durumu müzakirə olunub, bu sahədə atılacaq addımlar barədə fikir mübadiləsi aparılıb.

Tədbirdən əvvəl işçi qrup üzvlərinin iştirakı ilə Laçın rayonunun Sus kəndi ərazisində Həkəri çayına qızıl xallı forel balıqları buraxılıb.

# Türkiyəli rəsmilər Azərbaycan könüllülərinin qardaş ölkədəki fəaliyyətini yüksək qiymətləndirirlər



Kahramanmaraşda baş verən zəlzələlərdən sonra bölgəyə təyinat alan Samsun vilayətinin valisi Zülkif Dağlının rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan könüllülərinin düşərgəsinə baş çəkib.

Bu barədə AZƏRTAC-a Azərbaycan Gənclər Fondundan məlumat verilib.

Bildirilib ki, sözügedən görüşdə onu Kahramanmaraş vilayətinin baş prokuroru Sedat Çelik və polis rəisi Ömər Urhal müşayiət ediblər. Türkiyəli rəsmilər Azərbaycanın könüllü gənclərinin qardaş ölkədəki bu nəcib fəaliyyətini çox yüksək qiymətləndirib, onlara minnətdarlığını ifadə ediblər.

Məlumat üçün bildirək ki, təbii fəlakətdən zərər görmüş bölgələrdəki çadır şəhərciklərdə könüllü kimi çalışan azərbaycanlı gənclər minlərlə zərərçəkmiş şəxsə xidmət edir, eləcə də zərərçəkmiş bölgələrdəki müxtəlif məntəqələrdə qida, geyim, dərman və müxtəlif yardımların boşaldılması, çeşidlənməsi, paylanmasını həyata keçirir, yerli əhaliyə səyyar şəkildə su və isti içkilər paylayır, müxtəlif ərazilərdə yerləşən onlarca məhəlləyə zəruri yardımları çatdırır və digər dəstəkverici xidmətləri göstərirlər. Həmçinin könüllü gənclərimiz onlarca kəndə səfər edərək humanitar fəaliyyətlərin həyata keçirilməsində fəal şəkildə iştirak edirlər.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan könüllüləri zəlzələdən zərərçəkmiş uşaqların reabilitasiyası və asudə vaxtının səmərəli təşkili məqsədilə xüsusi çadırlar quraşdırır, habelə təbii fəlakət zamanı uşaqların keçirdiyi sarsıntıları, yaşadıqları travmaları minimuma endirmək üçün yüzlərlə uşağa qayğı və psixoloji dəstək xidməti göstərirlər. Bununla yanaşı, tibb təhsilli könüllülərimiz yerli əhaliyə ilkin tibbi yardım göstərdikdən sonra peşəkar həkimlərə yönəldir, eləcə də səyyar apteklərdə zərərçəkənlərə xidmət edirlər.

# FHN-in Türkiyədəki mobil səhra hospitallarında 260-ı uşaq olmaqla 1364 nəfərə tibbi xidmət göstərilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasına dəstək məqsədilə qardaş ölkəyə göndərilmiş Fövqəladə Hallar Nazirliyinin (FHN) mobil səhra hospitalları zəlzələnin ciddi zərər vurduğu Kahramanmaraş rayonunda fəaliyyətini davam etdirir.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hospitallarda ötən günlər ərzində ümumilikdə 260-ı uşaq olmaqla 1364 nəfərə yüksəksəviyyəli tibbi xidmət göstərilib. Hər cür müayinə və müalicə imkanlarına malik mobil səhra hospitalları fasiləsiz fəaliyyətini davam etdirir.

# Azərbaycan XİN Beynəlxalq Ədalət Məhkəməsinin qərarına münasibət bildirib

Xarici İşlər Nazirliyi (XİN) Azərbaycan irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı işlər üzrə Beynəlxalq Ədalət Məhkəməsinin 22 fevral 2023-cü il tarixli qərarlarına münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, XİN-in açıqlamasında deyilir: "Məhkəmənin 2021-ci il 7 dekabr tarixli qərarına uyğun olaraq, Ermənistanın tərəflərin mübahisəsini gərginləşdirməkdən çəkinmək barədə hələ də öhdəlik daşıdığının məhkəmə tərəfindən bir daha təsdiq edilməsini alqışlayırıq.

Ermənistan tərəfindən minaların yerləşdirilməsinin müvəqqəti tədbirlərin tətbiq dairəsinə uyğun olmamasına dair əvvəl gəldiyi nəticəyə yenidən baxılmaması mahiyyət üzrə qərar deyil və Azərbaycan Ermənistanın bu xüsusda məsuliyyətə cəlb edilməsi istiqamətində səylərini davam etdirəcək.

Həmçinin Azərbaycan tərəfindən etirazların "təşkili və dəstəklənməsini dayandırması" və Qarabağa "təbii qaz və digər kommunal xidmətlərin verilməsini dərhal bərpa etməsi" iddiaları ilə bağlı Ermənistanın müvəqqəti tədbirlər tələblərinin məhkəmə tərəfindən rədd edilməsini alqışlayırıq. Məhkəmə öz qərarında Azərbaycanın səlahiyyətləri daxilində Laçın yolu boyunca təhlükəsiz hərəkəti təmin etmək üçün sərəncamında olan bütün addımları atdığı və atacağına dair, habelə 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirdiyi barədə Azərbaycanın səylərini nəzərə alıb.

Azərbaycan beynəlxalq hüquq çərçivəsində əhalisinin hüquqlarını müdafiə etməyə və Ermənistanı davamlı olaraq ağır insan haqları pozuntularına görə cavabdehlik daşımasını tələb etməyə davam edəcək".

# Avtomobillər aksiya ərazisindən sərbəst keçib







Gün ərzində sülhməramlıların Xankəndidən gələn 30-u yük, 5-i isə minik avtomobili olmaqla 35 avtomobili Laçın istiqamətinə gedib. İki yük avtomobili isə əks tərəfə istiqamət alıb.

❖❖❖

Rusiya sülhməramlılarına məxsus doqquz avtomobil azərbaycanlı ekofəalların Laçın-Xankəndi yolunda dinc məqsədlə təşkil etdikləri aksiya ərazisindən sərbəst keçib. Sülhməramlıların Xankəndidən gələn 9 yanacaqdaşıyan avtomobili bu dəqiqələrdə Laçın istiqamətinə gedib.




❖❖❖

Rusiya sülhməramlılarına məxsus bir avtomobil azərbaycanlı ekofəalların Laçın-Xankəndi yolunda dinc məqsədlə təşkil etdikləri aksiya ərazisindən sərbəst keçib. Xankəndidən gələn bir minik avtomobili Laçına gedib. Azərbaycanlı ekofəallar etirazların ilk gündən humanist prinsiplərə sadiqdirlər. Heç də siyasi xarakter daşımayan bu aksiya Qarabağ ərazisində faydalı qazıntı yataqlarının istismarına qarşıdır.

Qeyd edək ki, dünən gün ərzində aksiya ərazisindən 71 avtomobilin sərbəst keçidi təmin olunub.

*AZƏRTAC*

# Vardanyan Qarabağda son günlərini yaşayır

*Əvvəli 1-ci səh.*

"4rd.am" saytına açıqlamasında deputat məlumatı haradan aldığını deməsə də, qarşıdakı günlərdə bu qərarın elan olunacağını bəyan edib: "Dedim ki, məndə məlumat var. Fevralın 23-nə qədər Ruben Vardanyan istefa verməlidir. Amma bu məlumatı haradan və necə əldə etdiyimi izah etməyəcəyəm. Ruben Vardanyana demək lazımdır ki, Rubencan, hardan gəlmisənsə, geri qayıt. Təbii ki, bütün problem Rubenin orada olması ilə bağlıdırsa, təbii ki, Qarabağdakılar Rubenə deməlidir ki, Xankəndidən getsin. Ondan soruşmaq lazımdır ki, səni kim göndərib və niyə Qarabağa gəlmisən? Təbii ki, ruslar göndərib, başqa kim olasıdır ki?"

Deputat əmin olduğunu ifadə edib ki, Ruben Vardanyan Moskvanın göstərişlərini yerinə yetirir. Paşinyanın partiyadaşının sözlərinə görə, son vaxtlar Ermənistan hakimiyyəti ilə Qarabağ arasında münasibətlərin gərginləşməsinin səbəbi də bu olub və Vardanyanın gedişi ilə Qarabağla Ermənistan arasında problemlər aradan qalxacaq.

Hakim partiyanın nümayəndəsi əlavə edib ki, Qarabağda Araik Arutyunyanın və Ruben Vardanyanın "hakimiyyəti" yaradılıb: "Lakin Arutunyanın Moskvaya səfərindən sonra vəziyyət dəyişib. Arutyunyan Moskvaya gedib geri qayıdanda başa düşüb ki, nəyisə qaçırsa, işi bitəcək. Ona görə də yenidən nəzarəti ələ keçirib".

Məlumata görə, Vardanyanın gedişi ilə bağlı müzakirələr Qarabağdakı separatçılar arasında yenidən qızışıb. İddia olunur ki, Araik Arutyunyan "baş prokuror" Qurgen Nersisyana "dövlət naziri" vəzifəsini təklif edib. Qondarma rejimin "baş prokuror"u Qurgen Nersisyan "Mediahub"a müsahibəsində ona "dövlət naziri" vəzifəsinin təklif olunduğunu təsdiqləsə də, hələlik qərar vermədiyini diqqətə çatdırıb. Arutyunyana müxalif Metaxe Akopyan isə əmindir ki, Ruben Vardanyanın özü istefa verməyəcək və Araik Arutyunyan onu istefaya göndərməli olacaq. O bildirib ki, Arutyunyan belə bir addım atarsa, bu, Bakının tələbinin yerinə yetirilməsi demək olacaq.

Metaxe Akopyan əlavə edib ki, Araik Arutyunyan Ruben Vardanyanı işdən çıxarsa, bu, qəzəbə səbəb olacaq. Vardanyan və komandasının üzvləri isə fevralın 23-də gözlənilən istefa ilə bağlı xəbərlərə hələ də reaksiya verməyiblər. Araik Arutyunyan isə həmin gün ictimai mesaj çatdıracağını açıqlayıb.

Bu arada Qarabağdakı qanunsuz "hərbi birləşmənin keçmiş komandiri" Samvel Babayanın 44 günlük müharibədən sonra "qəhrəman titulu"ndan və "təhlükəsizlik şurasının katibi vəzifəsi"ndən imtina edərək uzaqlaşdığı Qarabağın "siyasi həyatı"na yenidən inteqrasiya etməsi barədə xəbərlər yayılıb. Ermənistanın "Hraparak" nəşri yazıb ki, Babayanın vaxtilə etdiyi hərəkətlər məsuliyyətdən yayınmaq və məğlubiyyətin günahını hərbi-siyasi rəhbərliyin çiyninə yükləmək cəhdi kimi qiymətləndirilib. Vurğulanıb ki, bu günlərdə Babayan Xankəndidə təşkil olunmuş tədbirdə iştirak edib. "Doğrudur, o, qondarma qurumun indiki və keçmiş başçıları Arkadi Qukasyan və Bako Sahakyan, eləcə də "dövlət naziri" Ruben Vardanyanla birinci cərgələrdə oturmayıb, lakin Qarabağdakı mənbələrimiz deyir ki, Babayan növbəti "seçkilər"ə hazırlaşaraq "komanda yoldaşları" ilə aktiv görüşlər keçirir. O gizlətmir ki, "konstitusiya"ya dəyişiklik edilsə, "dövlət naziri vəzifəsi"ni tutmağın əleyhinə olmayacaq, amma nə "ictimai dairələr"də, nə də "hakimiyyət dairələri"ndə ona hansısa vəzifə təklif etməyə hazırlaşmırlar", - deyə nəşr yazır.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

*Təkrar*

## AZƏRBAYCAN RESPUBLİKASI "ŞUŞA ŞƏHƏRİ DÖVLƏT QORUĞU İDARƏSİ" PUBLİK HÜQUQİ ŞƏXSİ

### Şuşa şəhərində yerləşən keçmiş poçt binasının əsaslı təmiri işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Açıq tenderin predmeti: **Şuşa şəhərində yerləşən keçmiş poçt binasının əsaslı təmiri işlərinin satın alınması.**

Açıq tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Açıq tenderin predmeti haqqında ətraflı məlumat tenderin Əsas şərtlər toplusunda verilir. Maraqlanan təşkilatlar iştirak haqqını ödəyərək yazılı müraciət edir və qeydiyyata alınır. Qeydiyyata alındıqdan sonra Bakı şəhəri, Səbail rayonu, Qurban Abbasov, 29 ünvanından tenderin Əsas şərtlər toplusunu (Azərbaycan dilində) əldə edə bilərlər. Əlaqələndirici şəxs: Kərimli Babək Əyyub oğlu, telefon: +994 70 203 05 20 **(bkarimli@shusha.gov.az)**

**İştirak haqqı ödəmək üçün bank rekvizitləri:**
**Benefisiarın adı: "ŞUŞA ŞƏHƏRİ DÖVLƏT QORUĞU İDARƏSİ" PUBLİK HÜQUQİ ŞƏXSİ**
**Benefisiarın VÖEN-i: 8600208181**
**Valyuta: AZN**
**Benefisiarın bank: "Kapital Bank" ASC Səbail filialı**
**Filialın kodu: 200059**
**VÖEN: 9900003611**
**SWIFT kod: AIIBAZ2XXXX**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**Benefisiarın hesabı: AZ34AIIB380900C9449351435105**
**İştirak haqqı: 1500,00 manat.**

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
3. Tender təklifi (zərflərin açıldığı gündən qüvvədə olma müddəti) 60 bank günü.
4. Tender təklifinin ümumi qiymətinin 1 faizi məbləğində təminatın qüvvədə olma müddəti (zərflərin açılış tarixindən sonra) 30 bank günü.
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.
8. Tikinti üzrə fəaliyyət növlərini həyata keçirməyə icazə verən müvafiq lisenziyaların surəti (sənədin əsli və ya notarial təsdiq olunmuş surəti).
9. "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında qərara əsasən aid olduğu sahibkarlıq subyekti barədə rəsmi məktub sənədin əsli və ya notarial təsdiq olunmuş surəti).
10. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olub-olmaması haqqında müvafiq vergi orqanından arayış (sənədin əsli və ya notarial təsdiq olunmuş surəti).
11. İddiaçı inşa etdiyi analoji tikililər barədə təsdiqedici sənədlərin (müqavilə, akt, Forma 2 və s.) surətini və inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir. Podratçı təcrübəsini sübut etmək üçün ən azı bir ədəd oxşar obyekt inşa edib təhvil vermiş olmalıdır.
12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış (sənədin əsli və ya notarial təsdiq olunmuş surəti).
13. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (sənədin əsli və ya notarial təsdiq olunmuş surəti); -Hüquqi və faktiki ünvanlar barədə arayış vermək.
14. Tender təklifini və tenderlə əlaqədar satınalan təşkilata təqdim olunan digər sənədləri imzalayan şəxsin tender təklifini və həmin sənədləri imzalamaq səlahiyyətini sübut edən sənədlər. Müəssisənin rəhbərinin təyin edilməsi haqqında qərarın surəti və imzasının notarius tərəfindən təsdiq olunmuş nümunəsi; - Müəssisənin strukturu və ştat cədvəli barədə arayış.
15. Müqavilənin icrasına cəlb olunacaq hər ixtisas üzrə bütün işçilər haqqında cədvəldə verilmiş məlumat (arayış vermək), hər bir işçi ilə bağlanmış əmək müqaviləsinin surəti (və ya işçinin satınalma müqaviləsinin icrasında iştirak edəcəyi barədə razılıq ərizəsi; ərizədə işçinin soyadı, adı, atasının adı, doğum tarixi və yeri, satınalma müqaviləsinin icrasında yerinə yetirəcəyi vəzifə qeyd olunmalıdır).
16. Müqavilənin icrasına cəlb olunacaq subpodratçılar haqqında məlumat (arayış vermək).
17. Müqavilənin icrası, eyni zamanda işlərin yerinə yetirilməsi üçün istifadə olunması nəzərdə tutulan nəqliyyat vasitələri, texnikalar və avadanlıqlar haqqında məlumat (arayış vermək).
18. Son üç il ərzində yerinə yetirdiyi bütün müqavilələr haqqında məlumat (arayış vermək).
19. Son üç il maliyyə hesabatları: mühasibat balansları, mənfəət və zərər haqqında hesabat, pul vəsaitlərinin hərəkəti haqqında hesabat, kənar audit tərəfindən tərtib olunmuş audit hesabatları (əgər varsa), vergi orqanlarına verilmiş hesabatlar, maliyyə fəaliyyəti haqqında vergi orqanlarına təqdim olunmuş illik vergi bəyannamələrinin surəti və s. qeyd olunan sənədlər ardıcıllıqla sıralanmalı və surətləri əlavə olunmalıdır.
20. Podratçıların tender təkliflərinin təqdim olunmasının son tarixindən əvvəlki son 36 ay ərzində ümumi maliyyə dövriyyəsi barədə bank tərəfindən verilmiş rəsmi arayış təqdim olunmalıdır. Arayışda bank hesabının (hesablarının) təqdim olunan tarixə vəziyyəti (hesab qalığı, hesaba yönəldilən tələblər (kartoteka-2) və s.) barədə məlumatlar qeyd olunmalıdır.
21. Tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.

İddiaçılar tender təklifi və təklifin təminatı istisna olmaqla bütün digər sənədləri 16 mart 2023-cü il saat 15:00-a qədər Tender komissiyasına təqdim etməlidirlər. Həmin sənədlərdən hər hansı birini təqdim etməyən və ya ixtisas göstəricilərinə dair tələblərə uyğun olmayan iddiaçının tender təklifi qəbul olunmur.

İddiaçılar öz tender təkliflərini (imzalanmış, möhürlənmiş, ikiqat bağlama zərfdə iki nüsxədə, əsli və surəti olmaqla müşayiət məktubu ilə birgə) 03 aprel 2023-cü il saat 15:00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər. Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender təklifi zərfləri 04 aprel 2023-cü il saat 15:00-da Bakı şəhəri, Səbail rayonu, Qurban Abbasov, 29 ünvanında açılacaqdır.

***Tender komissiyası***

# Rusiya Prezidentinin çıxışı Qərbdə rezonans doğurub

Rusiya Prezidenti Vladimir Putinin Federal Məclisə ənənəvi illik müraciəti iki saata yaxın davam edib. Bir sira aktual məsələlər barədə danışan və münasibət bildirən ölkə lideri ən əhəmiyyətli açıqlamanı çıxışının sonunda verib. Söhbət Rusiya Federasiyasının Ukraynaya qarşı müharibəsi və ya, gözlənildiyi kimi, ölkədə yeni səfərbərlik dalğası barədə deyil, Strateji Hücum Silahları Müqaviləsi (START) ilə bağlı olub: "Mən bildirməyə məcburam ki, Rusiya Strateji Hücum Silahları Müqaviləsində iştirakını dayandırır. Müqavilədən çıxmır, məhz iştirakını dayandırır".



Qeyd edək ki, START ABŞ və Rusiya arasında hələ də qüvvədə olan silahlara nəzarətlə bağlı yeganə böyük sazişdir. V.Putin Moskvanın qərarını onunla əsaslandırıb ki, "ABŞ və NATO açıq şəkildə, məqsədlərinin Rusiyanın strateji məğlubiyyətə uğratmaq olduğunu bildirirlər. ABŞ-də isə nüvə silahlarının yeni növlərinin hazırlanması üçün iş gedir və Vaşinqton nüvə silahlarının təbii sınaqlarının mümkünlüyünü" istisna etmir.

V.Putinin Federal Məclisə ünvanladığı müraciətin əhəmiyyətli hissəsi Rusiyanın daxili problemlərinə, onun iqtisadi və sosial vəziyyətinə həsr olunub. Rusiya Federasiyasının Prezidenti ölkəsinə qarşı tətbiq olunan sanksiyaları yenidən kəskin tənqid edib: "Qərb bizə qarşı təkcə hərbi, informasiya deyil, həm də iqtisadi cəbhə açıb. Rusiya iqtisadiyyatı Qərbin düşündüyündən də güclü oldu və Rusiyaya "iqtisadi cəbhədə" qalib gəlmək mümkün olmadı".

V.Putinin çıxışı Qərbdə böyük əks-səda doğurub. Məsələn, ABŞ Prezidenti Co Baydenin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan Rusiya Prezidentinin Qərbə qarşı ittihamlarını "cəfəngiyat" adlandırıb: "Heç kim Rusiyaya hücum etməyib. Rusiyanın Ukrayna və ya hər hansı digər tərəfdən hansısa hərbi təhdid altında olması fikrində bəzi absurdluq var".

O bildirib ki, Rusiya Ukraynada döyüşləri dayandırsa və evinə getsə, müharibə başa çatacaq: "Əgər Kiyev döyüşləri dayandırsa və ABŞ və koalisiya (Ukraynanın Qərb müttəfiqləri - red.) ona döyüşməkdə kömək etməsə, Ukrayna dünya xəritəsindən silinəcək".

Srağagün Varşavada səfərdə olan ABŞ Prezidenti Co Bayden isə bir daha əmin edib ki, Qərb Rusiyaya hücum etməyi və ya ələ keçirməyi planlaşdırmır. O qeyd edib ki, Putin Ukraynaya genişmiqyaslı hücum əmri verəndə dünya ictimaiyyətinin geri çəkiləcəyini düşünüb və yanılıb: "Ukraynalılar çox cəsarətlidirlər, Amerika, Avropa, Atlantik okeandan Sakit okeana qədər xalqların koalisiyası - biz çox birləşmişik. Demokratiya çox güclüdü".

NATO-nun baş katibi Yens Stoltenberq Rusiyanın START müqaviləsində iştirakını birtərəfli qaydada dayandırmaq niyyətindən təəssüfləndiyini bildirib və Rusiya prezidentini "öz qərarını yenidən nəzərdən keçirməyə və mövcud müqavilələrə əməl etməyə" çağırıb.

ABŞ Dövlət katibi Entoni Blinken də Rusiyanın START Müqaviləsində iştirakını dayandırmaq qərarını tənqid edib. Onun sözlərinə görə, bu, "ən yüksək təəssüfə layiqdir və məsuliyyətsizlikdir". O, Afinaya səfəri zamanı vəd verib: "Biz Rusiyanın əslində nə etdiyini diqqətlə izləyəcəyik".

Almaniyada Putinin Rusiyanın START Müqaviləsində iştirakını dayandırmaq niyyəti ilə bağlı sözləri Moskva tərəfindən növbəti eskalasiya mərhələsinin əlaməti kimi qəbul edilib. Almaniyanın xarici işlər naziri Annalena Berbok Türkiyəyə səfəri zamanı bildirib ki, beynəlxalq ictimaiyyət Rusiya Prezidenti Vladimir Putini Ukraynadakı müharibəyə görə Qərblə qarşıdurmada nüvə silahına əl atmamağa çağırıb.

Xatırladaq ki, START Müqaviləsinin məqsədi onun üzv ölkələrinin nüvə arsenallarının genişlənməsinin qarşısını almaqdı. Sənəd 2010-cu ildə Praqada imzalanıb və 2011-ci ildən qüvvədədir. 2021-ci ildə Co Bayden ABŞ Prezidenti vəzifəsinə gəldikdən dərhal sonra müqavilə daha beş il müddətinə, 2026-cı il fevralın 5-dək uzadılıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***




## OXUCULARIN NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| ***"Azərpoçt" MMC*** | *(012) 598-49-55, (051) 225-02-13* |
| ***"Azərmətbuatyayımı" ASC*** | *(012) 441-19-91, (050) 322-33-17* |
| ***"Qaya" firması*** | *(012) 566-77-80, (050) 214-40-53* |
| ***"Region Press" MMC*** | *(055) 316-79-01, (050) 316-79-01* |
| ***"Səma-M" MMC*** | *(012) 594-09-59* |
| ***"Ziya" LTD*** | *(012) 497-76-96, (050) 306-77-22* |
| ***"Pressinform" MMC*** | *(012) 598-49-52, (070) 340-01-00* |
| ***"City press" MMC*** | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


*Təkrar*

## Daxili İşlər Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsi

### geyim əmlaklarının, fərqlənmə nişanlarının və yataq ləvazimatlarının satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tenderdə iştirak etmək istəyənlər iştirak üçün müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədini təqdim etdikdən sonra satınalma predmeti üzrə Əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən (iş vaxtı saat 09:00-dan 18:00-a kimi) ala bilərlər. Əlaqələndirici şəxs: Pərviz Abdullayev, telefon: 590-20-64. **Ünvan: Bakı şəhəri, Azadlıq pr., 161.**

**İştirak haqqı: 1000.0 AZN**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Dövlət Xəzinədarlığı Ağentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T Bik: CTREAZ 22**
**DİN-in Maddi Texniki Təminat Baş İdarəsi**
**Hesab: AZ14CTRE00000000000002077706**
**VÖEN: 1500281641**
**Büdcə təsnifatının kodu: 142595 BSK 3**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması.*
2. *Satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması.*
3. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması.*
4. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*
5. *Sahibkarlıq subyektinin bölgüsü.*
6. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması.*
7. *Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır).*
8. *Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır).*

Malgöndərənlər (podratçılar) ilkin sənədləri (1-6-cı bənddə göstərilən) **13.03.2023-cü il saat 12:00-dək** Tender komissiyasına təqdim etməlidirlər. Ünvan: Bakı şəhəri, Azadlıq pr., 161.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini (7-8-ci bənddə göstərilən) **30.03.2023-cü il saat 11:00-dək** təqdim etməlidirlər. Ünvan: Bakı şəhəri, Azadlıq pr., 161.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **31.03.2023-cü il saat 12:00-da** DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinin inzibati binasında açılacaq. Ünvan: Bakı şəhəri, Azadlıq pr., 161.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binaları üçün müxtəlif tipli kondisionerlərin, fankoil qurğularının və pultlarının, habelə mərkəzi soyutma-isitmə tipli (VRV və ya VRF) sistemin təchizatı və quraşdırılması işlərinin satın alınması və Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün "Daşınmaz əmlakın qiymətləndirilməsi" üzrə xidmətin satın alınması ilə bağlı tenderlər Satınalmalar komissiyasının 21 fevral 2023-cü il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Satınalmalar komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### balansında olan "Bərdə" bərə gəmisinin MAN 5S26MC baş mühərrikin ehtiyat hissələrinin satın alınması məqsədilə

### *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 06 mart 2023-cü il Bakı vaxtı ilə saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071.**

***Tender komissiyası***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin əməkdaşı Kəmalə Bayramovaya atası

**FƏTULLA ƏLİMƏRDANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*



www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5086
Sifariş 470

Qiyməti 40 qəpik